**TOFİQ QƏBUL**

# BÜTÖV YURDUN DUASI GƏRƏK

**Naxçıvan - 2026**

***Redaktor:*** ***Vəli QARAXAN,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair***

*Tofiq Qəbul 1957-ci ildə anadan olmuşdur. O, 1979-cu ildə Naxçıvan Dövlət Pedoqoji İnstitutunu bitirib. Dil və ədəbiyyat müəllimidir.*

*Şair 80-ci illərdən respublika mətbuatında və yerli mətbuatda maraqlı bədii nümunələri ilə çıxış edir. Onun "Döndün qövsi-qüzehə" adlı ilk şeir və hekayələr kitabı 2005-ci ildə "Məktəb" nəşriyyatında, "Nuhçıxan Naxçıvan" (2006), "Köksüm altında söz döyünür" (2008), "Qarabağdır Azərbaycan" (2010) və "Son sevgi məktubum" (2012), "Ömür boyda zaman" (2016), "Şeir özü çınqıdır" (2018), "Yer kürəmiz qatarımız" (2020) şeir və hekayələr kitabları isə "Əcəmi" nəşriyyatında çapdan çıxmışdır. "Bütöv yurdun duası gərək" şeir kitabı şairin oxucularla doqquzuncu görüşüdür.*

*Tofiq Qəbul 2009-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*

***Tofiq Qəbul. Bütöv Yurdun duası gərək (şeirlər).*** *Naxçıvan: "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2026, 120 s.*

*Naxçıvan ədəbi mühitində yazıb-yaradan qələm sahiblərindən biri də şair Tofiq Qəbuldur. İndiyə kimi 8 şeir kitabı işıq üzü görən şair bu dəfə "Bütöv yurdun duası gərək" adlı növbəti kitabı ilə oxucuların görüşünə gəlib.*

*Kitabda şairin son bir neçə ildə qələmə aldığı şeirləri, 1 poeması, müxtəlif düşüncələri, eyni zamanda, bir benddən ibarət olan ədəbi nümunələri və bayatıları toplanmışdır.*

4700000000
053-2022

© "Əcəmi" 2026

# TOFİQ QƏBULUN BÜTÖV YURD DUASINI DİNLƏYƏRKƏN

Naxçıvan ədəbi mühitinin ağır ifallı şairlərindən biridir Tofiq Qəbul. Onu nə zamandan tanıdığımı düşünərək keçmişə boylanır, xatirələri çözələyirəm. Oğlu Elşənlə olan dostluğumu əlimdə məşəl kimi tutub 1997-98-ci illərə kimi gedib çıxıram. Təxminən 30 illik bir keçmişdə şair Tofiq Qəbulla tanışlığımın izini tapıram. 2003-cü ildən etibarən "Şərq qapısı" qəzetində yaradıcı fəaliyyətə başladığım illərdə şair Allahverdi Aqillə birlikdə ayda bir dəfə ədəbiyyat səhifəsi hazırladığımız, daha sonra ayda 2 dəfə "Gəmiqaya" ədəbiyyat əlavəsi çıxardığımız günlərdə redaksiyamıza göndərilən məktublar arasından seçdiyimiz ədəbi nümunələr içində Tofiq Qəbul imzasını oxuculara mütəmadi olaraq təqdim edirdik. Zamanla orta məktəb müəllimi olan bu şairlə tanışlığımızın yaşı artdı.

Fərqli söz yaradıcılığı yolu olan, sakit xarakterinə uyğun poeziya dünyasında bəzən üsyankar və savaşçı milli duyğularla yüklənmiş şeirlərə də yer verən Tofiq Qəbulun indiyə kimi müxtəlif illərdə səkkiz şeir kitabı işıq üzü görüb. "Döndün qövsi-qüzehə" (2005), "Nuhçıxan Naxçıvan" (2006), "Köksüm altda söz döyünür" (2008), "Qarabağdır Azərbaycan" (2010), "Son sevgi məktubum" (2012), "Ömür boyda zaman" (2016), "Şeir özü çınqıdır" (2018) və "Yer kürəmiz qatarımız" (2020) kitablarında ömrünün altmış doqquzuncu ilini yaşayan şairin söz çeşməsindən süzülüb gələn poeziyası oxuculara təqdim olunub. Onu da qeyd edim ki, Tofiq

Qəbul 2009-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

“Bütöv Yurdun duası gərək” şeirlər kitabı isə Tofiq müəllimin oxucularla növbəti – doqquzuncu görüşüdür. Son kitabını bir neçə bölməyə ayıran Tofiq Qəbul vətənpərvərlik, ailə, cəmiyyət, ictimai-siyasi mövzularda olan şeirlərini “Zaman haqq işini gördü axır ki” bölməsində bir yerə toplayıb. Bu bölmədə diqqəti daha çox çəkən şairin vətənpərvərlik ruhunda olan şeirləridir. Hər şeiri oxuduqca müəllifin işğal altında olan torpaqlarımıza görə nə qədər mənəvi əzab çəkdiyini görür, vətəndaş narahatlığını hiss edir, onunla həmfikir olaraq şeirlərini ucadan oxumaq istəyirsən. 2020 və 2023-cü illərin payızında qəhrəman oğullarımızın qorxmazlığı sayəsində torpaqlarımızın düşmən işğalından azad edilməsi şairin şeirlərində də mövzunu kədərdən qürur və sevincə doğru dəyişməyə kifayət edib:

Açılıb qanadı Azərbaycanın,
Səni qırx dörd gündə əzib keçdi o.
Atdı üzərindən çəni, dumanı,
Bir nəhəng nur olub işıq saçdı o.
İndi Azərbaycan sən deyən deyil,
Buyur, qılıncının önündə əyil.

*(“İndi Azərbaycan sən deyən deyil”)*

Bu tipli şeirləri kitabda adında əks olunan bütöv yurdun duası kimi dinləyirsən:

Daha doğma yurda qayıdırıq biz,
İndi yurdumuzda mağar qurulsun.
Azad məhəbbətlə çarpan qəlbimiz
İsa bulağı tək axsın, durulsun.

Əlyazmalarını oxuduğum bu şeirlərin hər birində şairin yenilik axtarışları, sözə olan həssas münasibəti, poetik dünyasından süzülən fikirləri oxucunu da ağuşuna alıb duyğu dərinliklərinə çəkib aparır. Oxucu həmin dərinliklərdən şairin fikirlərində yeni üfüqlərə boylanır. Tofiq Qəbulun özü də bu ümiddədir. Və elə həmin ümidlə oxucunu özünün söz süfrəsinə dəvət edir. “Şeirlərim” adlı poetik nümunəsində dediyi kimi:

Şeirlərim bayrağım tək ucadır,
Şeir dili çoxmənalı, haçadır.
Şeirlərim çiçək dolu xonçadır.
İstəyir ki, bir kimsəyə bəxş ola,
İstəyir ki, anlayana kəşf ola.

Şeirlərim atəşpərəst kimidir,
Şeirlərim günəşpərəst kimidir,
Köks dolusu geniş nəfəs kimidir.
Tərif sevməz, tərəf sevməz bir kərə,
Gecə yatmaz, söz saxlamaz səhərə.

Şeirlərim şahbaz atdır, qaçır hey!
Dağ-dərəni, çöl-çəməni qucur hey!
Qartal olub zirvələrə uçur hey!
İnanmayan qoy dalınca yüyürsün,
İnananlar söz süfrəmə buyursun.

Ötən illər ərzində yaxından müşahidə etdiyim şair sadəliyi, həssas təvazökarlığı ilə tanıdığım yurddaşlarımdan biridir. Şeirlərində də bu təvazökarlığını görmək olar. O, iddia coşğunluğuyla özünü önə atan, tribunalara həvəsli pafos dolu çıxışlar ma-

raqlısı deyil. Şeirin içində var-gəl edən, şeirin ölçüsünü öz ölçüsünə sığdırıb düşüncələrini əlyazmalara köçürən söz adamıdır:

Mən şeirin içindəyəm,
Şeir mənim içimdədir.
Mən şeirin ölçüsündə,
Şeir mənim ölçümdədir.

*("Mən şeir yazmıram ki")*

Məhz belə bir söz adamının şeirlərində poeziyanın yaratdığı lövhələr oxucunun da ürəyini açır, könlünə xoş gəlir. Elə "Lövhə" adlı şeirindəki təbiət təsvirini oxuyanda rəssam tablosu önündə şeir dinlədiyini hiss edirsən:

Qara bulud axın edir, yağış qoxuyur,
İldırımlar ilmə-ilmə naxış toxuyur.

Təbiətlə bağlı şeirlərində Tofiq Qəbul daha çox ürəyə yatır. Bunu şairin həmin qəbildən olan "Bahar" şeirini oxuyanda da hiss edirsən. Bəlkə də digər məfhumlardan fərqli olaraq təbiət hamımızın ortaq dəyəri, sevgisi, istifadəmizdə olan ortaq yaradılış faktı olduğundan bir oxucu kimi mənə də xoş gəldi:

Qara bulud qanad çalır,
Çırpıntısı yağış olur.
İldırımlar qaval çalır,
Çaxnaşması alqış olur.
Torpaq açır sinəsini,
Yağış hopur sinəsinə.
Güllər qalxır sini-sini,
Torpaq altdan sinə-sinə.
Təbiət də insan kimi
Gülümsəyir, gah ağlayır.

Yer fəzada yaşıl gəmi,
Tanrım onu qucaqlayır.

Hər insanın bədbinləşdiyi, özünə qapandığı, dünyadan küsdüyü məqamlar olur. Bu məqamlarda üz tutacağımız bir Allah bizi o qorxulu kimsəsizlik uçurumundan çıxarmaq üçün əllərimizi dərgahına açdığımız ümid qapımız olur. Tofiq Qəbul da şair təkliyinə çəkildiyi məqamlarda, görünür, həmin bədbinliklə Allahına üz tutur:

Məni təklənməkdən qoru, Allahım!
Qəlbimə şübhələr dolur, Allahım!
Məni tək bu sual yorur, Allahım!
Ta kimə gərəyəm, ta kimə gərək?

*("Ta kimə gərəyəm")*

Yuxarıdakı bəndin son misrasındakı sualın bir çox cavabı var. Məncə, oxucu sevgisi Tofiq Qəbul üçün bir cavab olmalıdır. Onun yazdığı şeirlərin oxucularının şairə ehtiyacı var. Şair onlara gərəklidir. Buna görə də bədbinliyə qapılmadan yaradıcılığa köklənmək ən gözəl seçim olardı. Düzdür, şairlər hər biri bu insan qələbəliyi içində özlərini tənha hiss edirlər. Bunun poetik ifadəsini önümdəki şeirləri vərəqləyəndə də gördüm. Tofiq Qəbul yazır ki:

Ürəklər daşlaşıb,
Hər biri başdaşı.
Dörd fəsil bir olub,
Bahar da qışlaşıb...
Tənha.

*("Tənha")*

Əminəm ki, bu tənhalıq da şair narahatlığının şeirləşən bir haldır. Ümumiyyətlə, Tofiq Qəbul yaradıcılığında milli kimliyə, milli özünüdərkə, xalqın

özündən uzaqlaşmağına qarşı ciddi və həssas bir narahatlıq var. Bu da onun şeirlərində öz əksini mütəmadi olaraq göstərir. "Özümüz olmasaq" şeiri də həmin poetik nümunələrdən biridir. O şeirdə şair yazır:

Söykənək min illik yaddaşımıza,
Söykənək canımız yurddaşımıza.
Özümüzə dönək, özümüz olaq,
Vətən köklü ağac, kökümüz olaq.
Kəmənddən qurtulduq, bəndəmi düşək?
Zəncirdən qurtulduq, dərdəmi düşək?
Özümüz olmasaq, yalan dünyadı,
Özümüz olmasaq, talan dünyadı.

"Bütöv yurdun duası gərək" kitabının ikinci bölməsində şairin lirik duyğulardan doğan şeirləri toplanıb. "Sevgi duyğuları" adlandırdığı bu bölmədə bir-birindən maraqlı həzin və lirik şeirlər oxucu hisslərini sığallayır. Amma qeyd edim ki, bu bölmədə belə şairin vətəndaşlıq hissləri ön plandadır. O, sevgi hisslərinə ilk olaraq bir şəhid məzarı önündəki qızın yaşadıqlarını sözün gücüylə poetik şəkildə təqdim edərək başlayır. "Şəhid məzarı önündə bir qızın monoloqu" adlı həmin şeirin bir neçə bəndini xatırlatmaq istərdim:

Sən Vətəni sevdin, mən səni sevdim,
Sən elə Vətənsən mənə, şəhidim!
Bu görüş ilk görüş, son görüş deyil,
Yenə gələcəyəm, yenə, şəhidim!
Bu sevgi qürurum, qoy hamı bilsin,
Şəhid sevgilim var, şəhid eşqim var.
Mən də ilk eşqimi şəhid verirəm,
Mənim eşq məbədim bu şəhid məzar!

Tofiq Qəbulun sevgi şeirlərində də onun ifallığı, zəngin mənəvi keyfiyyətləri, həssas lirik duyğuları oxucuya xoş gəlir. Bir-birindən maraqlı həmin şeirlərdə xəyallar dünyasına qərq olub gedirsən. Maraqlıdır ki, Tofiq Qəbul bir neçə mənsur şeirini də bu bölmədə oxuculara təqdim edir. "Sevgi karantini", "Xoşbəxt xəyal, dadlı yuxu", "Sevgi dolu şeir kitabım" kimi mənsur şeirlər unudulmaqda olan bu ədəbi janrın yeni maraqlı nümunələri kimi qarşımıza çıxır.

Hər bir şairin yaradıcılığında müəyyən səbəblərdən yarımçıq qalmış, yaxud tamamlanmamış, bir çox hallarda isə bitkin fikirlə yekunlşadığı üçün bir bənddən ibarət nümunələr olur. Tofiq Qəbul da həmin şeirlərini "Bir bəndlik fikirlər" bölməsində ümumiləşdirib. Həmin bəndlərin hər birində poetiklik diqqəti cəlb edir. Bu bəndlər arasında şifahi xalq ədəbiyyatımızın bayatı janrının bir neçə nümunəsinə də rast gəlmək mümkündür.

Kitabın "Mənim düşüncələrim" adlı bölməsi daha çox Tofiq Qəbulun "Gündəlik"ləri kimi qarşımıza çıxır. 44 günlük İkinci Qarabağ müharibəsindən əvvəl, həmin günlərdə və müharibədən sonrakı gündəlik qeydlərin yer aldığı bu bölmədə bəlkə də poetik yeniliklərlə qarşılaşmırıq, amma bir şairin vətəndaş yanğısından doğan təlatümlü fikirləri olduqca maraq doğurur. Həmin qeydlər arasında müəllifin şeir haqqındakı özünəməxsus düşüncələri də var: "Poeziyanı sevin. İnsanlığın palitrasıdır poeziya. Hətta Allahın kəlamları da poetikdir. Hər kəs üçündür poeziya".

"Bütöv yurdun duası gərək" kitabında şairin həcmcə kiçik, mənaca böyük bir poeması yer alıb. Birinci Qarabağ Müharibəsində şəhadətə qovuşan

Ağcabədi şəhərinin ilk şəhidi İsmayılov Məhəmmədə həsr olunmuş poema epik təhkiyəsi ilə oxucu yaddaşında bir şəhid haqqında dolğun təəssürat yarada bilir.

Dəyərli şair həmkarımı növbəti–doqquzuncu kitabının nəşri münasibəti ilə təbrik edirəm. Müəllifin "Mənim düşüncələrim" bölməsindəki bir fikrini xatırladım. Tofiq Qəbul yazır: "Şeiri duymaq, anlamaq və təhlil etmək şeiri yazmağa bərabərdir. Yazmaq könül çırpıntılarını kağıza pıçıldamaqdır. Şeiri oxuyaraq sevmək bu pıçıltıları aydın eşitməkdir. O an yazan da, oxuyan da ilahi duyğu içindədir. Bu duyğu bir anlıqdır, ancaq keçici deyil. Bu, ciladır, işıqdır. Nəhayət, insan qəlbində kök salan mənəvi eşqdir. Bir sözlə, şair və oxucu qarşılıqlı enerjidir".

İnanıram ki, bu qarşılıqlı enerji axınının ötürücüsü olan "Bütöv yurdun duası gərək" kitabı da şeiri duyan, anlayan oxucuların düşüncələrinə işıq tutacaq, hisslərini cilalayacaqdır.

**Elxan YURDOĞLU,**
***AMEA Naxçıvan Bölməsinin***
***İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun***
***elmi işlər üzrə direktor müavini,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent,***
***şair-publisist***

# ZAMAN HAQQ İŞİNİ GÖRDÜ AXIR Kİ

## İNDİ AZƏRBAYCAN SƏN DEYƏN DEYİL

Daha kələk adlı silahın kütdü,
Daha əməllərin elə car olub.
"Böyük Ermənistan" ilğımdır, itdi.
Təkcə sən özün yox, ordun xar olub.
İndi Azərbaycan sən deyən deyil,
Buyur, qılıncının önündə əyil.

İllərdir, "göz yaşın sellənib gedir",
"Yazıq millət" adlı möhürün olub.
Sən düşən torpaqda ancaq dərd bitir,
Yalan, fitnə, hiylə, sipərin olub.
İndi Azərbaycan sən deyən deyil,
Buyur, qılıncının önündə əyil.

Qarabağ səninçün Vətən deyildir,
Bir daşın üstünə daş qoymadın ki.
Onunçün tez sındın, mum tək əyildin,
İllərdir, qan içdin, heç doymadın ki.
İndi Azərbaycan sən deyən deyil,
Buyur, qılıncının önündə əyil.

Açılıb qanadı Azərbaycanın,
Səni qırx dörd gündə əzib keçdi o.
Atdı üzərindən çəni, dumanı,
Bir nəhəng nur olub işıq saçdı o.
İndi Azərbaycan sən deyən deyil,
Buyur, qılıncının önündə əyil.

Yurdun üzük qaşı möhtəşəm Şuşam
Aslanlar önündən götürülən tac.
Milli ordumuza heyran qalmışam,
Düşmənin taxtını elədi tarac.
İndi Azərbaycan sən deyən deyil,
Buyur, qılıncının önündə əyil.

Ana sərhəddimdə durmuşam daha,
Tərpənsən, qanına qəltan olarsan.
Xalqımın səbrini çəkmə sınağa,
Didərgin qalarsan, viran qalarsan.
İndi Azərbaycan sən deyən deyil,
Buyur, qılıncının önündə əyil.

*10.12.2020*

## XARIBÜLBÜL

Otuz ildi həsrətdidə,
Görəmmədin yarı, bülbül!
Göz yaşların gilə-gilə,
Əritmədi qarı, bülbül!

Ləçəklərin qırılmışdı,
Yurd-yuvadan ayrılmışdın.
Gəzib-gəzib yorulmuşdun
Çölü, düzü, xarıbülbül!

"Şuşa!"–deyib ağladın sən,
Ləçək-ləçək çağladın sən,
Daim qara bağladın sən,
Qovammırdın sarı, bülbül!

Zaman çatdı, olduq zindan,
Torpaq üstə töküldü qan.
Qarabağdır Azərbaycan!
Unut ahı-zarı, bülbül!

Qırx dörd gündə tarix yazdıq,
Erməniyə qəbir qazdıq,
İti qovduq, bu da azdı,
O ki gördü xarı, bülbül!

İntiqamın acı oldu,
Düşmən qaçdı, qıcıq oldu.
Şuşa zəfər tacı oldu,
Çal kamanı, tarı, bülbül!

“Vətən bağı al-əlvandı,
Var içində xarıbülbül”.
Ömür sürməli dövrandı,
Yaraları sarı, bülbül!

*07.11.2021*

## BÜTÖVLÜYÜN DADI BAŞQA

Ey Yeni il, yenə gəldin,
Qapımızı döydün yenə.
Gəlişinə şadam bu il,
Gəl, gəl, sözüm vardır sənə.

Pəncərəni naxışla sən,
Ulduz-ulduz qar da ələ.
Gəlişinə süfrə açaq,
Bayram edək gülə-gülə.

İki ildir Şuşam azad,
Qarabağım mənimlədir.
"Bütöv Vətən! Bütöv Vətən!"–
Deyir xalqım yüz illərdir.

Budur, daha qovuşmaqda
Turan adlı türk dünyası.
Qılınc çəkir yağılara
Bəzz qalası, Ərk qalası.

Bütövlüyün dadı başqa,
Ey Yeni il, anla sən də.
Gəl bircə an məni dinlə,
Arzularım bol sinəmdə.

Bütöv Vətən – bütöv ürək,
Paralanmaz bir daha o.
Xalqı daim aparacaq
Sabaha o, sabaha o.

*30.12.2022*

## XANKƏNDİ, XOCAVƏND, XOCALI, ŞUŞA
*(akrostik şeir)*

**X**an babanın əmanəti
**A**lın yazın, qan yaddaşın.
**N**amərd qonaq xəyanəti
**K**ədər, ələm, dərd, göz yaşı.

**Ə**yilmədin, yıxılmadın,
**N**ə zülmətdən keçdin şəhər!

**D**ar qəfəsdə sıxılmadın,
**İ**nam əkdin, biçdin, şəhər!

***

**X**əyalların qucağında
**O**caq oldun korun-korun.
**C**inayətin sazağında
"**A**llah!"–dedin yorğun-yorğun.

"**V**ətən harda?!"–sordun, şəhər,
**Ə**lin yandı, dilin yandı.
**N**ə dəhşətlər gördün, şəhər!
**D**üşmən qaçdı, şər dayandı.

***

**X**əyanətin izi dərin,
**O**nlar qatil damğalıdır.
**C**əllad adlı namərdləri
**A**na yurdum qovmalıdır!

**L**ənət sənə, ey qəsbkar!
**İ**ndi çəkil ocağımdan.
Ordum gəlir, itil, nankor!
Rədd ol ana torpağımdan!

***

**Ş**eirim qanadlanır, şeirim canlanır,
**U**nudur ağrını, acını daha.
**Ş**əhərim ulduztək sinəmdə yanır,
**A**lnım indi açıq, şükür Allaha!

*26. 09.2023*

## XANKƏNDİM QURTULSUN 9 MAY GÜNÜ

İllərin arzusu çöküb sinəmə,
İllərin ağrısı çöküb sinəmə.
Şəhidlər torpağa əkildi hər gün,
Yuxumuz göylərə çəkildi hər gün.
Dünya qulağı kar, gözü kor idi,
Min-min didərginə sitəmkar idi.
Vətən torpaqları para qaldıqca,
Erməni Şuşada zurna çaldıqca
Para ürəyimiz sınırdı o dəm,
Dərddən kösöv olub yanırdı o dəm...
Vaxt gəldi, çəkildi duman da, sis də,
Gurladı ordumuz, coşdu dəniz tək.
Atıldı döyüşə milli ordumuz,
Düşməni bu yurddan sildi ordumuz.
Qarabağ qayıtdı, Şuşam qayıtdı,
Zəngəzur qayıtdı, Ağdam qayıtdı.
Qırx dörd gün düşmənə cəhənnəm oldu,
Dəmir yumruqların altında qaldı.
Bircə arzum da var, deyim, a dostlar,
Xankəndim bizimlə deyil, a dostlar!
Çözülsün təqvimdə zəfər düyünü,
Xankəndim qurtulsun 9 May günü!

*08.05.2023*

## NECƏ DEYİM AXI?

“Mən səni sevirəm!”–necə deyim ki?
Mənim ata yurdum düşmən əlində.
Axı bütövlüyə bağlıdır sevgi,
Sənin ata yurdun düşmən əlində.

Para ürəyimiz şəhid saz kimi,
Onun nəğməsində qəm-kədər yatıb.
O alıb ömrümüzün otuz ilini,
Otuz il nəğməyə o, qəhər qatıb.

Əgər doğma yurda qovuşmasaq biz,
Bizim bu eşqimiz necə cücərsin?
Əgər birləşməsə para qəlbimiz,
O necə şam olsun, necə közərsin?

Sevgimiz o zaman işıq saçacaq,
Vətən sevgisinin vüsalı varsa.
Şaxta səngiyəcək, zülmət qaçacaq,
Sevgi qış atladan güllü baharsa.

Sevgimiz bu yurdun eşqinə bağlı,
Vahid Vətən varsa, eşq yüksələcək.
Sən yaxşı bilirsən, sevənə axı
Bütöv Azərbaycan duası gərək.

*11.01.2019*

# BÜTÖV YURDUN DUASI GƏRƏK

Yadında? Deyirdim, Vətən dardadır,
İndi bu sevgimiz günah kimidir.
Sənin ki, mənim ki, yurdum dardadır,
Sevgimiz bir nalə, bir ah kimidir.

Zaman haqq işini gördü axır ki,
Ordum düşmən üstə axın elədi.
Qırx dörd gün ərzində hiyləgər tülkü
Əzildi, tapdandı, üzür dilədi.

Çıxdı torpaqlardan it qovulan tək,
Açıldı yurdumun qaşı-qabağı.
Buludlar sevindi, inci səpərək
Gül-çiçək elədi azad torpağı.

Daha doğma yurda qayıdırıq biz,
İndi yurdumuzda mağar qurulsun.
Azad məhəbbətlə çarpan qəlbimiz
İsa bulağı tək axsın, durulsun.

Qarabağ eşqiylə bizim sevgimiz
Vahid vətənimin təməli kimi.
Otuz il həsrətlə dözən sevgimiz
Şəhid övladların əməli kimi.

Daha maneə yox, daha sərhəd yox,
Qoy Günəş parlasın, qoy əssin külək,
Söylə, yadındamı, demişdim o vaxt:
–Bizə Bütöv Yurdun duası gərək.

*17.08.2021*

## BATABAT

Nə gözəl mənzərə! Heyrətim sonsuz,
Baxdım şair qəlbi, rəssam gözüylə.
Burda, elə bil ki, həyat zamansız,
Təbiət aparır məni özüylə.
Gözəl yarışında başdır Batabat,
Naxçıvan üzüksə, qaşdır Batabat.

Yamyaşıl xalıdır dağlar, təpələr,
Hətta sal qaya da ağac bitirib.
Göləndə naz ilə çarpır ləpələr,
Yel behişt ətrini bura gətirib.
Üzən adasına həyan Batabat,
Hər kəsi qoyubdur heyran Batabat.

Havası dərmandır, çiçəkləri tər,
Dağların başında qar qatar-qatar.
Quşlar məskənidir yaşıl meşələr,
Küləyi ruh oxşar, saçımı dartar.
Qürur, əzəmətdir, dağdır Batabat,
Tanrının qurduğu bağdır Batabat.

Bulaqlar çağlayır sal daş altından,
Zorbulaq, elə bil, ibadət evi.
Hər kəs ora gedir, ona çatınca
Özü də bilmədən çökür, əyilir.
Ağlımı, huşumu aldı Batabat,
Cənnətə açılan yoldu Batabat.

Baharı bir aləm, qışı bir aləm,
Payızı bir aləm, yayı bir aləm.
Burada gündüz gəz, gecəni əylən,
Günəşi bir aləm, Ayı bir aləm.
Zirvəsi qartallar yurdu Batabat,
Buluddan xeymələr qurdu Batabat.

Nə gözəl mənzərə! Heyrətim sonsuz
Baxdım şair qəlbi, rəssam gözüylə.
Burda elə bil ki, həyat zamansız,
Təbiət aparır məni özüylə.
Gözəl yarışında başdır Batabat,
Naxçıvan üzüksə, qaşdır Batabat.

*31.05.2021*

## NƏ ŞİRİNSƏN, ANA DİLİM!

Nə şirinsən, ana dilim!
Səndən doymur dilim mənim,
Sən tufanım, sən dincliyim,
Sən ətirli gülüm mənim.

Sən harayım, sən vuruşum,
Sənsən yoxdan var olanım.
Polad qanad oldun mənə,
Aydın sabaha yollanım.

Sən tanrımın bəxş etdiyi
Hissim, fikrim, arzum, duyğum.
Varlığıma hopdun ki, sən,
Dünyamızı sənlə duyum.

Sən Təbrizim, sən Dərbəndim,
Sən Borçalım, Zəngəzurum.
Bütöv Vətən carçısısan,
Sən kimliyim, sən qürurum.

Sən üzüyün qaşı Şuşam,
Sən məlallı Qarabağım.
Sənin ilə nəfəs alır
Əlli milyon qol-budağın.

Bax, Üçrəngli bayrağıma,
Sənlə birgə dalğalanır.
"Azərbaycan" himni gur səs,
Kainata havalanır.

Ana dilim, ana dilim,
Sən olmasan, kiməm, nəyəm?!
Ümmanların qucağında
İtib-batan bir təknəyəm.

*22.02.2017*

## ŞEİRLƏRİM

Şeirlərim yaz damlası, parıldar,
Qəlb isinər bu damlanın nurunda.
Dinləməsən, şeirim küsər, qırılar.
Duyan kəslər hər misrama göz olsun,
Şeirim axıb ürəklərdə köz olsun.

Şeirlərim bayrağım tək ucadır,
Şeir dili çoxmənalı, haçadır.
Şeirlərim çiçək dolu xonçadır.
İstəyir ki, bir kimsəyə bəxş ola,
İstəyir ki, anlayana kəşf ola.

Şeirlərim atəşpərəst kimidir,
Şeirlərim günəşpərəst kimidir,
Köks dolusu geniş nəfəs kimidir.
Tərif sevməz, tərəf sevməz bir kərə,
Gecə yatmaz, söz saxlamaz səhərə.

Şeirlərim şahbaz atdır, qaçır hey!
Dağ-dərəni, çöl-çəməni qucur hey!
Qartal olub zirvələrə uçur hey!
İnanmayan qoy dalınca yüyürsün,
İnananlar söz süfrəmə buyursun.

*13.05.2020*

## MƏN ŞEİRİ YAZMIRAM Kİ

Mən şeiri yazmıram ki,
Şeir özü yazır məni.
Mən misranı düzmürəm ki,
Misra özü düzür məni.

Mən şeirin içindəyəm,
Şeir mənim içimdədir.
Mən şeirin ölçüsündə,
Şeir mənim ölçümdədir.

İlham işıq – şeir işıq,
İlham sönük – şeir sönük.
Söz ilhamdan qanad alır
Qatar-qatar, bölük-bölük.

Axı şeir Tanrı payı,
Hər oxuyan dəvət almır.
Bu vəhdətlə bu ünsiyyət
Hər yazana qismət olmur.

*03.09.2020*

## İLLƏRİM KÖÇ ELƏYİR

İllərim köç eləyir,
Yükü aylar, günlərdir.
Şirin xatirələrdir,
Bir də qəmdir, kədərdir.

Dinir sinədəftərim,
Fikirlərim dərbədər.
Qovuşmur kirpiklərim
Gecə səhərə qədər.

İllərim köç eləyir,
Hanı gənclik çağlarım?
Hanı dostlar, qohumlar?
Hanı könül bağlarım?

Qəlbimin tellərində
Ahəstə səsləri var.
Ruhumun yaddaşında
Köz tutan sözləri var.

İllərim köç eləyir,
Yaşın zirvəsindəyəm.
Könlüm tənha, isinmir,
Qışın zirvəsindəyəm.

Hanı isti bir nəfəs?
Hanı o doğmaca səs?
Dövrəm sərt qayalardır?
Adlamağa yox həvəs.

İllərim köç eləyir,
Qarşımdadır yeni il.
Daha hissiz bir bütəm,
O veyildir, mən veyil.

*27.10.2025*

## QADINLAR

Həm bacıdır, həm anadır, ağbirçəkdir qadınlar,
Ləyaqətli, xoş ədalı tək çiçəkdir qadınlar.
Sanki heç vaxt tükənməyən al günəşin şöləsi,
Həm dünəndir, həm bu gündür, gələcəkdir qadınlar.

Ürəkləri yuxa kimi, ürəkləri dürr kimi,
Bəzən olur anlaşılmaz, açılmayan sirr kimi.
Ona “anam”–söyləyəcək, bax, dindirsən hər kimi.
Daim yanan, qayğı çəkən saf ürəkdir qadınlar.

Ev işində, çöl işində kişilərlə yanaşı,
Zəif, zərif vücuduyla kişilərlə yarışır.
Azərbaycan qadınıdır, qismətiylə barışır.
Ruh oxşayan, göz oxşayan kəpənəkdir qadınlar.

"Mən şairəm"–söyləsəm də, gözəllərə borcluyam,
Nərgizlərə, Lalələrə, Süsənlərə borcluyam,
Ülfət, şəfqət dənizində üzənlərə borcluyam,
Şair qəlbə ilham verən bir mələkdir qadınlar.

Bayramınız min mübarək, nurlu olsun gözünüz,
Övlad olsun, ailə olsun söhbətiniz, sözünüz.
Arxanızda duran ərsə, qabaracaq köksünüz,
Nə qədər ki, sevgi vardır, güləcəkdir qadınlar.

*03.03.2020*

## ATALAR

Sevgisi zirvədə, gözlə görünməz,
Hünərdi, qeyrətdi, ardı atalar.
Ailəyə ülfəti sözə hörülməz,
Sanki kül altında qordu atalar.

Əlləri qabarlı, zəhməti bəlli,
Hərdən nəşəlidir, hərdən kədərli.
Ən ağır anda da olmaz qəhərli,
Qadına ən sadiq ərdi atalar.

Bəzən nimdaş geyər, özünə qıymaz,
Övladı bir an da gözündən qoymaz,
Yaxşıya baş əyər, namərdi saymaz,
Övlada mayakdı, nurdu atalar.

"Qurbanam"–söyləməz övladına o,
Övladçün son qoyar həyatına o.
Dözər əziyyətin hər qatına o,
Dəyəri tükənməz zərdi atalar.

Atasız övladın qanadı hanı?
Daim sınıq gəzər, inadı hanı?
Vaxtı, dəqiqəsi, saatı hanı?
Övladçün sərvətdi, vardı atalar.

Yolu eniş-yoxuş, deyildir hamar,
Çatılan qaşları övlada qahmar.
Vətən savaşında irəli cumar,
Səngərdə pələngdi, şirdi atalar.

Analar haqqında çox deyibdilər,
Atalar haqqını çox yeyibdilər,
Atalar qəlbinə çox dəyibdilər.
Atalar sözündə vardı atalar.

*16.01.2021*

## ÖMÜR DASTANIM

İllərim arxamca boylanır mənim,
Mənə xatirələr pıçıldayırlar.
Axı şirin olur ömrün dünəni,
İllərim gör nələr pıçıldayırlar!

Bir vaxt uşaq idim, gözümdə heyrət,
Baxırdım dünyanın qeylü-qalına.
Hələ anlamırdım nədir səadət,
Bilmirdim, nə yazıb Tanrım alnıma.

Elə ki, başlandı məktəb illərim,
On il çıraq oldu müəllim gözümə.
Mənə mayak idi öz ana dilim,
Şeir dünyasını açdı üzümə.

Tələbə həyatım başlandı sonra,
Arxamda dayandı etibar, səbir.
Düz dörd il yol getdim zirvəli dağa,
İllərim yarpaq tək töküldü bir-bir.

Müəllimlik sənətim həyatım mənim,
Həm də şair oldum əlimdə qələm.
Tabaşir yazanım, silgi silənim,
Müəllimlik bir aləm, şeir bir aləm.

Bütöv Vətən eşqim andım, imanım,
Qələmim tuşlandı düşmən üstünə.
“Qarabağ bizimdir!”–odlu inamım,
Çökmədi heç zaman duman üstünə.

Qayıtdı Şuşam da – üzük qaşım da,
Qürurla döyündü sinəmdə ürək.
Mən də bu yaşımda – ömrün başında
Şəhidlər qəbrini öpdüm çökərək.

Bir də övladlarım, nur nəvələrim
Ömür badəsini daşıran şərbət.
Bir də kitablarım, gur nəğmələrim
Qəlbimdən süzülən ülfət, məhəbbət.

Bir gözümdə sevinc, birində ələm,
Altmış dörd yaşımı yola salıram.
İndi ağ saşlarım könlümə həmdəm,
Altmış beş yaş gəlir, fikrə dalıram.

Nə etmək, bu da bir ömür dastanı,
Ömrümün hər ili yağış, qar, külək.
Gözlərim dolusu gördüm dünyanı,
Yaşadım, yaratdım Tofiq Qəbul tək.

*03.11.2021*

## DÜNYAMIZ KARANTİNDƏ

Dayan, ya asta yeri,
Dünyamız karantində.
Sükut bürüyüb Yeri,
Dünyamız karantində.

Səhra sükut, çöl sükut,
Dəniz sükut, göl sükut.
Çiçək sükut, gül sükut,
Dünyamız karantində.

Tüstü-duman çəkilib,
Şərin qolu bükülüb.
Gözlər göyə dikilib,
Dünyamız karantində.

Pul sayanlar saymır ta,
Qul sayanlar saymır ta.
Kimsə zülmət yaymır ta,
Dünyamız karantində.

Yalan döyür gözünü,
Daha deyir düzünü.
Şeytan çəkib bizini,
Dünyamız karantində.

Bu gün orucdur dünya,
Bircə ovucdur dünya.
Sevgiyə acdır dünya,
Dünyamız karantində.

*03.05.2020*

## HƏR KƏSİN GÜMANI SƏNƏDİR, HƏKİM!

Dünya təlaş dolu, qalıb məəttəl,
Hər kəsin gümanı sənədir, həkim!
Açılıb qarşına milyonlarla əl,
Hər kəsin gümanı sənədir, həkim!

Sükut addım-addım sarır dünyanı,
Virus düşmən olub, qırır dünyanı,
Əlindən buraxıb Tanrı dünyanı,
Hər kəsin gümanı sənədir, həkim!

Kürəmiz tərsinə fırlanır indi,
"Yeni era" deyib aldanır indi.
"Evdə qal" dərdinə qatlanır indi,
Hər kəsin gümanı sənədir, həkim!

Taraz görəmmədi insan dünyanı,
İnsan zəhər ilə yudu dünyanı.
Daha həqiqətin çatıb zamanı,
Hər kəsin gümanı sənədir, həkim!

Top-tüfəng yığışıb, atom yığışıb,
Fəslin bilinməyir qarı, yağışı.
Tutub dünyamızı Tanrı qarğışı,
Hər kəsin gümanı sənədir, həkim!

Kəbəyə gedən yol sükut içində,
Papa Vatikanda kilsə küncündə.
Hamı dizi üstə, əli köksündə,
Hər kəsin gümanı sənədir, həkim!

Villalar qaranlıq hücrəyə dönüb,
Şou göstərənlər cücəyə dönüb.
“Qartallar”, “quzğunlar” sərçəyə dönüb,
Hər kəsin gümanı sənədir, həkim!

Vallah, dünənindən utanır insan,
Billah, şər əməldən usanır insan.
Bütün günahlardan arınır insan,
Hər kəsin gümanı sənədir, həkim!
Hər kəsin gümanı sənədir, həkim!

*10.04.2020*

## PAYIZ ÖMRÜ

Ağac tökür yarpağı,
Yağışa dönür yarpaq.
Xəzəl örtür torpağı,
Yarpaqsız qalır budaq.

Payız sarı rəngdədir,
Rəngli çaları da var.
Payız yeri rəngləyir,
Xışıldayır yarpaqlar.

Bu, nə qəmli nəğmədir!
Külək zümzümə edir.

Sanki bir ənənədir,
Külək, xəzəl yol gedir.

Qaçdı-tutdu oynunda
Xəzəl göyə sovrulur.
Küləklərin qoynunda
Xəzan yarpaq yorulur.

Payız yol verir qışa,
Astaca köçüb gedir.
Ömür də belə qısa,
Qarın altında itir.

*05.12.2025*

## KORRUPSİONERƏ

Gözü sönük,
içi sönük soydaşım,
İdealı, məsləki
qara qəpik soydaşım,
Ürəyinə daş bağlayıb
məmləkət boyda yaraya dönmüsən,
Cəhənnəm qapısında dayanmış
qaraxəbər qarğaya dönmüsən.
Yuxarıya quyruq,
aşağıya yumruq!
Budur şüarın,
budur meyarın.
Gözlərindən oxuyuram:
"Qardaşdan da irəlidir qarın!"
Nə erməni təcavüzü

qorxudur səni,
nə soydaş tənəsi.
Söylə,
ruhunu tərpədirmi
müstəqil Azərbaycanımızın
təntənəsi?!
Yolxucu xəstəliksən,
soxulmusan içimizə,
Hər gün duz basırsan
ağrımıza, acımıza.
Qənim kəsilmisən özününkünə,
Canı bir, qanı bir
Azərbaycan türkünə.
Hardan tapım sənə layiqli ad?
İştahası sonsuz,
iddiası sonsuz,
Düşməndən də amansız,
ey cılız cəllad?!

*20.10.2004*

## NƏ VAXT?

Daha bircə şeir yaza bilmirəm,
Daha ilhamımın qırılıb sazı.
Bu boyda kədərə dözə bilmirəm,
Daha itirmişəm baharı, yazı.

İndi sınıq-salxaq fikirlərimdən
Nə şeir hörülür, nə söz hörülür.
Dərdim dünyamızdır, bir də ki, Vətən,
Bu gün insan susub, şeytanlar gülür.

Qulağım səsdədir, ümidim səsdə,
Nə vaxt qurtulacaq bəladan dünya?
Nə vaxt oturacaq şeytan qəfəsdə?
Nə vaxt don geyəcək lalədən dünya?

*28.03.2020*

## ORUCUNUZ MÜBARƏK!

Günəş tezdən oyandı,
Orucunuz mübarək!
Ruhlar nura boyandı,
Orucunuz mübarək!

Ay nazildi bir az da,
Heç olmazdı bu nazda.
Hər kəs erkən namazda,
Orucunuz mübarək!

Ac nə çəkir bilindi,
Şeytan qəlbdən silindi.
Daha Allah biləndi,
Orucunuz mübarək!

İnsan insan oldu ta,
Qəlb insafla doldu ta,
Dua-səna nur buta,
Orucunuz mübarək!
Orucunuz mübarək!

*24.05.2020*

# ELEGİYA

*(Ömrü faciəli sonluqla bitmiş gənc ananın dilindən)*

Ana olmaq arzusuyla yaşadım,
Sən dünyaya gələn günün şad günüm.
Nə gözəldir özün, adın, soyadın!
Həsrətindən qopdum daha yad gülün.

Sıxdım səni dodağıma, üzümə,
Tanrım sanki behişt gülü buyurmuş.
Həyat eşqim təpər oldu dizimə,
Axı Tanrım səni məndən yoğurmuş.

Eh, nə deyim bu qismətə, qədərə?!
Dil açmamış dünyam mənə dar oldu.
“Ana!” sözü eşitmədim bir kərə,
Ölüm gəldi, ölüm mənə yar oldu.

Süd qoxunu alammadım doyunca,
Ölüm zalım nə tez gəldi, tez gəldi!
Məzar üstə tək təsəlli oyuncaq,
Bir də sənsən, bir də sənsən təsəlli.

Quzum, indi dil açmısan, bəlkə də,
“Ana!” sözü heç dilinə gəldimi?
Küçə boyu hey qaçırsan, bəlkə də,
Ana əli heç əlinə dəydimi?

Sən qorxma ki, ruhum daim yanında,
Kədərinə, sevincinə “can!” deyər.
Səninləyəm ömrünün hər anında,
Həyat yolun duam ilə nur geyər.

*01.06.2020*

# DÜNYA DURACAQ YER DEYİL

*"Dünya duracaq yer deyil, ey can, səfər eylə"*

*(İ.Nəsimi)*

Bu dünya duracaq yer deyil daha,
Daş olub duyğular, kor olub hisslər.
Bu dünya duracaq yer deyil daha,
Arxada mələklər, öndə iblislər.

Bu dünya duracaq yer deyil daha,
Gözəgörünməzlər artır, çoxalır.
Daha Yer kürəmiz qorxunc şar kimi,
Nə insaf, nə inam, nə iman qalır.

Əvvəl hasar idi bizi ayıran,
Maskalar hasardan betər oldular.
Gözəgörünməzlər iş başındadır,
Gözlə görünənlər zəhər oldular.

Tanrı qəzəbindən qorxmadı insan,
Nə övlad, nə ata, nə dost tanıdı.
Oxunan mahnılar, qoşulan sözlər
Daha Xeyir deyil, Şər dastanıdır.

Bu dünya duracaq yer deyil daha,
Alıb papağımı, gedəcəyəm mən.
Son dəfə boylanıb Yer kürəmizə,
Sonra ilim-ilim itəcəyəm mən.

*01.07.2020*

## OXUMURAM, ƏL ÇƏKİN!

*(Sabiranə)*

Bir vaxt ata deyərmiş: "Oğul bala, oxuma,
Dünyanı dağıdaram söz deyilsə oğluma!"
Elə atanı, vallah, mən sıxaram bağrıma.
Məni boğubdur qəhər, oxumuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

Gərçi atam özü də elmə həvəskardır,
Deyir: "Məni yaşadan istəkdir, arzulardır".
Deyirəm: "Əl çək, ata!" Elə bil, atam kardır.
Yediyim olub zəhər, oxumuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

Mən ki "oxumaq" sözün gətirmirəm dilimə,
Soğan da qatmıram heç kefimə, əhvalimə,
Kitab ilandan betər, götürmərəm əlimə.
Zor ilə olur məgər? Oxumuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

Telefonum əlimdə, budur, ağlım başımda,
Eyib yoxdur gözümdə, eyib yoxdur qaşımda,
Deyirsən, mən kor olum indi cavan yaşımda?
Günüm keçsin bir təhər? Oxumuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

Sinəm-yaxam açıqdır, dar şalvarım əynimdə,
Ayağım corabsızdır, veş-meşoğum çiynimdə,
Bax, genişdir qəlbim də, bax, açıqdır eynim də.
Kitab verməyir bəhər, oxumuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

Yadam acı kədərə, yadam gözün yaşına,
Nümunəyəm dövrəmdə dostuma, yoldaşıma,
Bax sinəmdə döyməyə, bax modalı başıma.
Maşınım sanki kəhər, oxumuram, əl çəkin!\
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

Laçın, Şuşa deyirsiz, gah Xankəndi deyirsiz,
"Azərbaycan" -söyləyib, ürəyimi yeyirsiz,
Hələ mənə ad qoyduz: "Yurd-yuvasız, beyinsiz".
Daha olmuşam bezar, oxumuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

İndi zaman dəyişib, indi məkan dəyişib,
Axı nə ölkə, millət!? İndi iman dəyişib,
İşləməyən dişləyir, indi imkan dəyişib.
Verməyin mənə azar, oxumuram əl çəkin!
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

Fikrimi verməm əbəs siz kimi nadanlara,
Mən aşiqəm, mən aşiq cibləri milyanlara,
Baxıram, nə gündədir oxumuş qananlara,
Olsunlar bundan betər, oxumuram əl çəkin!
Eyləməyin dəngəsər, oxumuram, əl çəkin!

*11.05.2019*

## AZAD QADIN DEYİM SƏNƏ?

*(feministlərə)*

Yarıçılpaq dolanırsan,
Azad qadın deyim sənə?
İsmət, şərəf, ar danırsan,
Azad qadın deyim sənə?

Günün keçir daim barda,
Qıvrılırsan dar şalvarda,
Sənin üçün heçdir ər də.
Azad qadın deyim sənə?

Bədən döymə, əlin döymə,
Sərməst, sərxoş, dilin iynə.
Ata, ana nə vecinə,
Azad qadın deyim sənə?

Qardaşına qaxınc oldun,
Şəcərənə qılınc oldun.
Zaman ötdü, qorxunc oldun,
Azad qadın deyim sənə?

Örnək etmə Avropanı,
Çox görmüşük o zorbanı.
Daşıyırsan o ünvanı,
Azad qadın deyim sənə?

Qadın abır eməkdir, ey!
Həya, səbir deməkdir, ey!
Həzin şeir deməkdir, ey!
Azad qadın deyim sənə?

Daha nəyin çatmır sənin?
İstəklərin bitmir sənin.
Fikirlərin kütdür sənin,
Azad qadın deyim sənə?

Get, get, səndən ana olmaz,
Vətən üçün yanan olmaz.
Səndən Mələk, Sona olmaz,
Azad qadın deyim sənə?

*13.03.2020*

## YANVARDIR QAR İSƏ YOX

Bu gün ağ gül açıb sanki ağaclar,
Şaxtalı havanı isitmək üçün.
Yanvardır, görünmür bir komacıq qar,
Yığasan bir ovuc, top etmək üçün.

Buz salxım günəşdən nur götürür, bax,
Onun damlasında dürr dənələri.
Günəş batan kimi başlayır sazaq,
Duman addım-addım gəzir şəhəri.

Uşaqlar hey açır pəncərələri,
Qar hanı, hardadır, niyə görünmür?
Uşaqlar gözləyir yeni səhəri,
Gecə uca dağlar qara bürünür.

Yenə şüşələrdə qarın şəkili,
Bu gün də şəhərdə qardan əsər yox.

Duman da yorulub dağa çəkilir,
Yenə nəhəng boylu dağın qarı çox.

Daha “qarrr” -deməkdən qarğa da bezib,
Sussa da, axtarır bir azacıq qar.
Şaxta iş başında, şəhəri gəzir,
Yanvardır, görünmür bir komacıq qar.

*02.01.2021*

## YAĞIŞ KİMİ

Bu boyda da kədər olar?
Kədər yağış kimi yağdı,
Kədər yağış kimi yağdı.
Bu boyda da qəhər olar?
Qəhər yağış kimi yağdı,
Qəhər yağış kimi yağdı.

Yük atı tək dik qalxmışam,
Kürəyi bükük qalxmışam.
Tanrıdan incik qalxmışam,
Şələ yağış kimi yağdı,
Şələ yağış kimi yağdı.

İp əyirdim, yoruldum ta,
Barmaqlarım qırıldı ta.
Yaşadım hey qıta-qıta,
Cirə yağış kimi yağdı,
Cirə yağış kimi yağdı.

Ömrümü yedim bir təhər,
Sonuna yetdim bir təhər.
Sağ olun, getdim bir təhər,
Xəbər yağış kimi yağdı,
Xəbər yağış kimi yağdı.

*17.03.2021*

## ZAMAN BİR QAYĞISIZ HELLƏNCƏK

Həyatın başlandı ana bətnindən,
Hələ anlamırdın necədir aləm.
Dünyaya gələli ucaldı nalən,
Yox idin, var oldun beləcə, insan!

Başlandı həyatın isti, soyuğu,
İlləri adladı ömür qayığı.
Yükləndi çiyninə min arzu, qayğı,
Hər ilin, hər ayın bilməcə, insan!

Uşaqdın, duymadın dərd nə olan şey,
Cavandın, sevgidən danışırdın hey.
Saçın ki, ağardı, başlandı giley,
Qocalıq dərd olar gülməsən, insan!

Bir ömür yaşadın eniş, yoxuşlu,
Gah məhəbbət dolu, gah nifrət dolu.
Gah haqqa asiydin, gah haqqın qulu,
Daim ürəyində vəsvəsə, insan!

Ömrün çox qısadı, 60, 70 il,
Kiminə zülm elə, kiminə əyil.
Nə olsun, zamanın vecinə deyil,
Zaman bir qayğısız hellənçək, insan!

*26.03.2021*

## EPİQRAM

Maska yaman yaraşır,
Hamı heyrandır sənə.
Hamı deyir: “Bu adam
Xidmətkardır Vətənə”.

Hamı deyir: “Bu oğlan
Xalq oduna yanandır.
Milli sevgi qanında,
Vətən ona cahandır”.

Çıxartsana maskanı,
Adamda həya gərək.
Çıxart, çıxart maskanı,
Əsil simanı görək!
Əsil simanı görək!

*26.08.2018*

## ADSIZ ŞEİR

Yas mərasiminin
yanından keçirəm.
Birdən durdum, dayandım,
dönüb yas mərasiminə girdim.
Mən getmirdim,
məni ayaqlarım aparırdı.
Tanımadığım
bir rəhmətliyin
yas mərasimi idi.
Tanıdım, ya tanımadım,
nə fərqi var,
ölən İ N S A N idi.
Və bu an
diksindi düşüncələrim,
dirildi düşüncələrim...
Ayaqlarıma minnətdaram.

28.01.2019

## GETDİ ZAMAN

*(Mərhum dostum Fazilin dilindən)*

Zaman mənə yoldaş oldu,
Hər nəfəsdə onu gördüm.
İstər dağda, istər daşda,
Dar qəfəsdə onu gördüm. …

... Ömür bitdi, getdi zaman,
Daha yoldaşım olmadı.
Sükut çökdü sağ, soluma,
Getdi... baş daşım olmadı.

*11.09.2021*

## QƏM

Qəm özü sahmana salar ürəyi,
Qəm qəlbin vulkanı, püskürməyi var.
Necə ki, zəlzələ yoğurar yeri,
Yerin sinəsindən dağlar qabarar.

Dağların qoynunda çiçəklər bitər,
Ətiri yayılar dağ-daş üstünə.
Qəm sevgi doğuran insanlıq halı,
Qəm bitər, eşq gülər insan üzünə.

*14.01.2022*

## ZARAFATDI

Zarafata nə ehtiyac,
Gülüş özü zarafatdı.
Zaman ötür qaranəfəs,
Qışı, yazı zarafatdı.

Hər ilimiz birər-birər
Arzuları didər, yeyər.
Yük yox, kədər beli əyər.
Alın yazı zarafatdı.

Günəş batdı, qaş qaraldı,
Üz qırışdı, saç ağardı.
Yalan sanki zərxaradı.
Sözün düzü zarafatdı.

Bax, beləcə ömür getdi,
Xoş anlar da ilğım, itdi.

Xeyir, ya şər - daha bitdi.
Çoxu, azı zarafatdı.

Yaz tələsdi, qış tələsdi,
Yeniş, yoxuş ta əbəsdi,
Uzun ömür bir həvəsdi.
Dünya özü zarafatdı.

Zarafatla oyanırıq,
Zarafatla aldanırıq.
Ömür barı, boylanırıq.
Tanrı sözü zarafatdı.

*28.09.2019*

## TA SEVGİ ŞEİRİ YAZMAYACAĞAM

Ta sevgi şeiri yazmayacağam,
Daha sevəcəyim adam qalmayıb.
Daha zaman ötüb, fəsillər keçib,
Daha Həvva yoxdur, Adəm qalmayıb.

Daha – "müasirəm" –deyir insanlar,
Sevginin qəlibi, yönü dəyişib.
Daha hisslər ölü, duyğular ölü,
Sevgi çılımçılpaq, donu dəyişib.

Daha külə dönüb məsum baxışlar,
Hərcayı baxışla əvəz olunub.
Daha zövq oxşamır incə naxışlar,
Yöndəmsiz naxışla əvəz olunub.

Ta sevgi şeiri yazmayacağam,
Nəfis misraları kimdir dinləyən?

Ta sevgi şeiri yazmayacağam,
Nə oxuyan vardır, nə də anlayan.

Məni qınamasın şair dostlarım,
Ta eşq məbədinə yadam, uzağam.
Əgər qalibdirsə robot insanlar,
Ta sevgi şeiri yazmayacağam.

*01.04.2022*

## GÜL, TİKANI NEYNƏYİRSƏN?

Gül, tikanı neynəyirsən?
Səni dərən olmayacaq.
Bu dözülməz qoxun ki, var,
Səni görən olmayacaq.

Bu tikanı neynəyirsən?
Durub, durub boylanma ki.
Sərin mehə boyun əyib,
Nazlı-nazlı sallanma ki.

Sənin saxta gözəlliyin
Ərşə çəkməz yuxuları.
Qoxusu pis ləçəyinlə
Bəzəməzsən yaxaları.

Gül, tikanı neynəyirsən?
Qopart onu, kənara at.
Sevmirsənsə, sevilməzsən,
Qarşılıqlı sevgi, həyat.

*17.04.2022*

## YENİ DÜNYA DÜZƏNİ

Bu gün yeni bir şey tapdıq,
Dünən oldu köhnəlik.
Milli nə var, onu satdıq,
Anlamadıq, neylədik.

Zaman ötdü, açdıq gözü,
Nə itirdik, qazandıq?
Peşman olduq, sözün düzü,
"Yenilik"dən usandıq.

Duyğulardan uzaq düşüb
Robot oldu halımız.
Bir də gördük, yer dəyişib
Bəxtimiz, iqbalımız.

Yeni dünya düzənində
Qazancımız nə oldu?
Aciz qaldı hətta din də,
İnancımız nə oldu?

İnsanlığın təməl daşı
Bircə-bircə söküldü.
Yerindəsə, uzaq başı,
Donuq heykəl dikildi.

*04.05.2022*

## LÖVHƏ

Qara bulud axın edir, yağış qoxuyur,
İldırımlar ilmə-ilmə naxış toxuyur.
Payız gəlir, çiçəklər də üşüyür bir az,
Ayaz gəlir gizli-gizli, ağaclar duymaz.
Yayın isti tabağı da soyuyur axır,
Sərin hava ilham olub könlümə axır.

*04.09.2021*

## 66 YAŞ – TƏQAÜD YAŞIM

Bu gün bir yaş daha salıb itirdim,
Ondan mənə təkcə xatirə qaldı.
Boylandım dünənə gözümdə həsrət,
Yaşanmış illərim sanki xəyaldı.

Yeni yaşım gəldi gülümsəyərək,
İndi o, dostumdur, can yoldaşımdır,
Sanki gözlərimə işıq gətirdi,
Əziz qonağım tək qəlbə daşındı.

Keçmişim yaddaşım, ondan doymadım,
Yeni yaş inamla vəd verir mənə.
Deyir: "Hər bir günün dolub daşacaq,
Qoymaram köksündə ümid tükənə".

İndi altmış altı yaşdır həmdəmim,
Ömür karvanına qoşulur o da.
Qaldı xatirimdə illərin tamı,
Aylarım, günlərim təzələnir ta.

Baxın, dövrələyib nəvələr məni,
Saçım ağ yelkənli gəmi kimidir.
Zaman əl saxlayıb maraqla baxır,
Hər anım dalğalı zəmi kimidir.

Salam, 66 – təqaüd yaşım,
İllərim bir ayrı, sənsə bir ayrı.
Salam, ey yeni yaş, mənə təpər ver,
Səninlə bir getsin ömür qatarım.

*03.11.2022*

## ZAMAN ÖZ İŞİNDƏDİR

Sanki zaman dəyişib,
Rənginə rəng qatıblar.
Çaş-baş qalıb insanlar,
Bu rənglərə batıblar.

Kim düzdür, kim əyridir?
Kimə inanağın bəs?
Hərə söz tolazlayır,
Yalan doğru, düz əbəs.

Zamanın birdir yolu,
Yol ayrıcı çoxalıb.
Nə deyirsən de, qardaş,
Hər şey zamana qalıb.

Zaman tərəzi kimi,
Zaman öz işindədir.
Ha rənglə, ha boyaq vur,
Mizan öz işindədir.

*26.12.2022*

## TANRI BİZƏ ZAMAN QURDU

Bu dünyada zaman varmı?
Axı hər şey təkrardır.
Fəsil gəlir, fəsil gedir,
Tar, kaman, ney təkrardır.

Yer kürəmiz fırlanır hey,
Sağı, solu bilinməyir.
Kainat da sükut dolu,
Ayı, ili bilinməyir.

İnsan gəlir, insan gedir,
Məzar daşı hamı üçün.
"Ölüm haqdır" deyilsə də,
Gözün yaşı hamı üçün.

Bu dünyada zaman varmı?
İdrakımız heyrətdədir.
Tanrı bizə zaman qurdu,
Su, od-ocaq həyat dadır,
Hava, torpaq həyat dadır.

*24.01.2023*

## NUO

Süzüb səmalarda səssiz-səmirsiz,
Hərdən göz qırpırsan ulduzlar kimi.
Hərdən də dayanıb yerə baxırsan
Cilvəli, nazənin şən qızlar kimi.

Bilinmir, hardansan, haralısan sən,
Kainatın hansı guşəsindənsən.

Sirrini vermirsən kimsəyə hələ,
Bəlkə də, həqiqət günəşisən sən.

Bəlkə də, bilirsən, insan oğlunun
Tamahı, iştahı, qəzəbi nədir.
Bəlkə, ona görə yaxın gəlmirsən,
İnsanlar çarpışan bir divanədir.

Sən, ey Uçan Boşqab, bəlkə, haqlısan?
Bu mavi kürəmiz haqdan uzaqdır.
Kim güclü, o haqlı - budur qanunlar,
Məhəbbət qaçaqdır, sevgi qaçaqdır.

Erməni bəslənir yağ-bal içində,
Başkəsən quldurdur oğuru, nankor.
Ancaq "Haqq!" -bağıran qoca dünyanın
Qulağı sağırdır, gözləri də kor.

Sən, ey Uçan Boşqab, gəl apar məni,
Ən ali idraksan, sığınım sənə.
Min illər "Tanrılar" -deyib durmuşuq,
Bəlkə, Tanrı sənsən? Yol göstər mənə,
Bəlkə, Tanrı sənsən? Yol göstər mənə,

*21.06.2019*

## O İLK

"Bir gül ilə bahar olmaz" deyirsən,
Bir gül bahar xəbərini verməzmi?
O gül bilir, fəda edir özünü,
O gül yurdun səhərini görməzmi?

Azadlığa gedən yollar çətindi,
Bu yolların zülməti var, qarı var.
Ümid, inam bu yollara çətirdi,
İnam varsa, yol kəsəmməz yağılar.

Xudafərin gözləyir ilk gələni,
Xudafərin gözləyir ilk gedəni.
O ilk gələn müjdə verər xalqıma,
O ilk gedən birləşdirər Vətəni.

Şuşa, Bakı gözlərində intizar,
"O ilk harda, o ilk kimdir?" soruşur.
Təbriz duman fikirləri dağıdır,
O ilk ilə Təbriz-Bakı qovuşur.

*05.02.2023*

## TA KİMƏ GƏRƏYƏM

Zəmidən gen düşən sünbül kimiyəm,
Ta kimə gərəyəm, ta kimə gərək?
Bazardan boş gələn zənbil kimiyəm,
Ta kimə gərəyəm, ta kimə gərək?

Hər ilim arzular karvanı, getdi,
Hər arzum ömrümün sarbanı, getdi.
Uşaqlıq, cavanlıq zamanı getdi,
Ta kimə gərəyəm, ta kimə gərək?

Zaman daha məni məndən ayırıb,
Hanı doğmalarım? Zaman tarıyıb.
Çağlayan bulağım susub, quruyub,
Ta kimə gərəyəm, ta kimə gərək?

Həyat çox gözəldir, mənalı olsa,
Körpə gülüş səpər, analı olsa.
Külək gözdən düşər, çiçəyi yolsa,
Ta kimə gərəyəm, ta kimə gərək?

Namərdə atılan güllə deyiləm,
Xainə çırpılan şillə deyiləm.
Aya bəzək verən halə deyiləm,
Ta kimə gərəyəm, ta kimə gərək?

Ağsaqqal sözünə "dünən” deyirlər,
Ha tərpət qəlbləri, dinən deyillər.
Milli dəyərlərə dönən deyillər,
Ta kimə gərəyəm, ta kimə gərək?

Təqaüd puluna dikilib gözüm,
Ocaq qalamağa qalmayıb közüm.
Daha kortalıbdır qələmim, sözüm,
Ta kimə gərəyəm, ta kimə gərək?

Məni təklənməkdən qoru, Allahım!
Qəlbimə şübhələr dolur, Allahım!
Məni tək bu sual yorur, Allahım!
Ta kimə gərəyəm, ta kimə gərək?

*29.04.2023*

## KƏRBƏLA
*(akrostik)*

**K**ədərin zirvəsi, qəmin zirvəsi,
**Ə**li övladının qətl məkanı.
**R**əzil imansızın iti pəncəsi
**B**urda axıdıbdır müqəddəs qanı.

**Ə**ləm, qüssə, kədər, əzab yeridir,
**L**ənətlə anılır qumu, torpağı.
**A**cı göz yaşları qəlbi əridir,
Adına layiqdir hər bir bucağı.

*24.07.2023*

## BİZİM VAXTIMIZDA BELƏ DEYİLDİ

*Şeirimin təqdisi pozulub bir az,*
*Zamanın təqdisi olmadığından.*
*(Müəllif)*

"Bu dünyanı mən təcrübə elədim" –
Belə söyləyirdi müdrik babalar.
İllər sınaq, ələyində ələndim,
Anladım ki, bu təcrübə məndə var.

"Bizim vaxtımızda belə deyildi,
İnsanlıq sadəydi, adildi"– dedim.
"Hər kəs bir-biriylə ülfət edərdi,
Hal-əhval soruşmaq adiydi"– dedim.

Kitab oxuyurduq, nərd oynayırdıq,
Bilirdik, kimin nə dərdi-səri var.
Qəlbimiz zəngindi, könlümüz toxdu,
Hörmət-izzətliydi əlləri qabar.

İndi bu nə gediş, bu, nə gedişdi?!
Qohumun qohumdan xəbəri yoxdu.
Hər kəs öz qınına çəkilib durub,
Hamı əsəbidi, dartılan oxdu.

Telefon əllərdə kitab kimidi,
Yolda da, işdə də əldən düşməyir.
Pul, sərvət düşkünü olub adamlar,
Ürəklər daş kimi, heç dəyişməyir.

Uşaq da uşaqlıq görməyir daha,
Nə "Çiləkən" bilir, nə "Qəcəmədaş".
Gözü telefondan ayrılmayır ki,
Tanıya babanı, nənəni, qardaş.

Bu gediş hayana, Allahım, söylə?
Bizi qurtar deyə haqdan dilədim.
Fikirlər qəlbimi sıxır, incidir,
"Bu dünyanı mən təcrübə elədim".

*16.03.2024*

## BU ŞEİRİM SƏNƏ HƏDİYYƏM

*(akrostik sonet)*

**F**ikrim, hissim, duyğum yenə uzaqda,
**Ə**ziz xatirələr isidir məni.
**R**uhuma yaxındır indi uzaq da,
**İ**nsan unudarmı xoşbəxt dünəni?

**D**oğmasan, əzizsən, qızım kimisən,
**Ə**n ali dəyərin təmiz ürəyin.
Xanım qız, ailənin gözü kimisən,
Ailənə bağlıdır dəniz ürəyin.

**Y**usif səndən alır qolu, qanadı,
**U**şaq dəcəlliyi evin bəzəyi.

**S**əninlə birgədir günü, saatı,
**İ**nan, ətir saçan gülə bənzəyir,

**F**ərəhdən, ay qızım, gözlərin gülsün,
Bu şeirim də sənə hədiyyə olsun.

*27.08.2023*

## VÜQAR
*(uşaq şeiri)*

**V**üqardır adım mənim,
**Ü**rəyimdə arzu var.
**Q**ayadır atam mənim,
**A**rzumu tezcə anlar.

**R**azıyam anamdan da,
Məni hey əzizləyir.
Səhər açılan anda
Məni dərsə səsləyir.

Dərslərim əla gedir
Şuluğum da yerində.
Başım ulduza çatır,
Dərsə cavab verəndə.

Müəlliməm deyir ki,
Vüqar, yerdən səs salma.
Partada düz otur ki,
Ədəbdən iki alma...

Sevirəm Qarabağı,
Şuşamı, Xankəndimi.

Sevirəm bu torpağı
Vallah, öz anam kimi.

Bax, beləyəm, bax belə,
Şair də məndən yazır.
Qələmi alıb ələ
Vüqar oğlandan yazır.

*18.10.2023*

## NƏ İŞİM VARDI DÜNYAYLA?

Nə işim vardı dünyayla?
Bir heçlikdə idim o vaxt.
Nə bir ağrım-acım vardı,
Nə bir tale, arzu, nə baxt.

Nə işim vardı dünyayla?
Gəldim, gördüm, gözüm doldu.
Gözü gülən necə də az!
Gözü yaşlı necə boldu!

Nə işim vardı dünyayla?
Sükut məlhəm, sükut aram.
Bir heçliyə getmiş olsam,
Bu dünyadan qurtularam.

*21.04.2024*

## AY HƏKİM

Ağrı-acılarım bitmir, tükənmir,
Ümidim sənədir, sənə, ay həkim!
Göydə Allah isə, yerdə də sənsən,
Gəlmişəm qapına yenə, ay həkim!

Beş gün qara dünya, bəlkə, biri ağ,
Elə o ağ gün üçün gəzirəm soraq.
Yenə sən gümanım, Allaha pənah!
Gəlmişəm, yardım et, mənə, ay həkim!

“Ömrüm qəm buludu” – ürəyim deyir,
Daha kömək etmir yazdığım şeir.
Bu sönmüş könlümün məlhəmini ver,
Bəlkə, ilham pərim dinə, ay həkim!

Gəlmişəm, adıma deyirlər: “Xəstə”,
Biri uca deyir, biri ahəstə.
Bu ağır sözləri sən doğra, kəs də!
Sağalt, sonra məni qına, ay həkim!

*21.04.2024*

## QURTULUŞ YOX

Dünya, sənin dərdlərin çox,
Bu yük altda əzilmisən.
Gizlin qalan nəyin var ki?
Ta sirrin yox, çözülmüsən.

Dünya, sənin rənglərin çox,
İnsan taladı, götürdü.
Aşıb-daşan suların çox,
İnsan qurutdu, bitirdi.

Kainatı gəzən dünya,
Qatar oldun insanlara.
Hey daşıdın insanları
Heç bilmədin hardan hara.

Bəlkə, ondan qurtulmaqçün
Gecə-gündüz fırlanırsan?
Qurtuluşun çətin olar,
Sən insanı nə sanırsan?

İnsan qurar, dağıdar da,
Kimdir ona qarşı duran?
Onu yola gətirmədi
"Tövrat", "Zəbur", "İncil", "Quran".

*27.07.2024*

## SƏNİ NECƏ VƏSF EDİM?

Səni necə vəsf edim?
Qaşın yerində deyil.
Kirpiyin, qara gözün,
Dodağın, yanaqların,
Başın yerində deyil.

Səni necə vəsf edim?
Bədənin, qolun, əlin,
Ayağın göynək-göynək.
Boynunun dalı belə
Yenə də göynək – döymə.
Səni necə vəsf edim?
Üryandır bədənin də.
Gizlində nəyin vardır?
Gizlin qalıb nəyin bə?

Səni necə vəsf edim?
Boyalar içindəsən.

Dırnağın göz çıxarır,
Cadugər biçimdəsən.

Səni necə vəsf edim?
Qızaran sifətin yox.
Xəcalət tərin hanı?
Abrın, mərifətin yox.

Səni necə vəsf edim?
Sən hansı millətdənsən?
Keçmişdə mələk idin,
İndisə ifirtəsən,

Səni necə vəsf edim?...

*29.08.2024*

**68**

68...
Bu rəqəm yuvarlaq deyil,
Yadda, yaddaşlarda
qalacaq deyil.
Ancaq o,
düşüncələrimə hakim kəsilib,
Kədərimə sığınsam da,
ürəyim bu rəqəmə isinib.
Axı bir il yaşayacağam onu,
Sonda bitəcək
bu qoşa rəqəmin həyatımdakı
oyunu.

Xoş gördük,
68 yaş, 68 yaşlı rəqəm!
Allah qismət etsə,
düz bir il səninləyəm!

*03.11.2024*

## SÖYLƏ, TƏYYARƏ

Canımız əmanət sənə, təyyarə,
Əmanət beləmi qorunar, söylə?
"Hər şey yaxşı olar!" –dedik, inandıq,
İnamı beləmi qırırlar, söylə?

Sənə kim xəyanət etdi, bildinmi?
Arxanca kim güllə atdı, bildinmi?
Kimlər arzusuna çatdı, bildinmi?
Sən de, sözlərindən arınar, söylə!

Dedik ki, qurtulduq müsibətlərdən,
Qurtulduq zülmdən, rəzalətlərdən.
Demə, xəbərsizik xəyanətlərdən.
Yaramız nə zaman sarınar, söylə?

*27.12.2024*

## TƏNHA

Çəkilib qınına,
Qəm çöküb canına.
Bürünüb, bükülüb
Xəyal dumanına
Tənha.

Açılmır qapısı,
Özü və qarısı.
Gələnin, gedənin
Kəsilib arası,
Tənha.

Soyuyub insanlar,
Buzlaşıbdır qanlar.
İlğıma dönübdür
O ötən zamanlar...
Tənha.

Ürəklər daşlaşıb,
Hər biri başdaşı.
Dörd fəsil bir olub,
Bahar da qışlaşıb...
Tənha.

Şəhərlər dopdolu,
Qatar, maşın yolu.
Çatışmır, təəssüf,
Adi insan yolu.
Tənha.

Bu gediş hayana?
İnanma, dayana.
Ha bağır, ha çağır:
“Tənhayam, ay ana,
Tənha!”

*23.03.2025*

## ÖZÜMÜZ OLMASAQ

Bu dünya, deyəsən, yalan dünyadı,
Yalan yox, bəlkə də, talan dünyadı.
Daha azadlıq da gözdən düşübdü,
Daha həqiqət də sözdən düşübdü.
Açılıb bazarı "azadələrin",
Onlar haqq itirir, yalan dilənir.
Kürsüyə gedən yol qısa olubdur,
Çoxları həyadan kasad olubdur.
Zaman əzizləyir "bərk gedənləri",
Yumağa döndərir dərk edənləri.
Bir vaxt "Şuşa” -dedik, "Qarabağ" -dedik,
O vaxt hər birimiz Xankəndi idik.
Üç min şəhidimiz ucalığımız,
Zəfər çələngimiz o bayrağımız.
Bəs indi nə oldu, axı nə oldu?
İndi Qərbə meyil ənənə oldu.
Hər kəs yad ipini əyirməyində,
Üyünür yadların dəyirmanında.
Uzun dırnaqlılar dəstəsi gəlib,
Vəzifə, cah-cəlal xəstəsi gəlib.
Dayaz ağıllılar ekranlardadır,
Diringi mahnılar, bax, hər yandadır.
Popunu şişirdən nazlı-qəmzəli,
Botoks edənlər, vallah, gülməli!
Cinsi dəyişməyə həkim həvəsli,
Bir deyən də yoxdur: "Ayıbdır, bəsdir!"
Kişi, qadın cinsi qarışıb daha,
Bu gediş hayana?! Pənah Allaha!
Saysız virusların yolları açıq,

Dərman bazarında nələr yox artıq.
Ay canım, apteklər nə qədər olar?
Alver cana, cibə soxulan qollar.
İndi meydandadır saxta alimlər,
Dəyərdən düşübdür daha elmlər.
Yenilik deyənlər hoqqabazlardır,
Yenilik istəyən ədabazlardır.
Oğul saymaz olub, saymazdır gəlin,
Bu gediş nə gediş, ay millət deyin?
Budur anarxiya, azadlıq hanı?
Gəlin, sipər edək qanun qalxanı.
Söykənək min illik yaddaşımıza,
Söykənək canımız yurddaşımıza.
Özümüzə dönək, özümüz olaq,
Vətən köklü ağac, kökümüz olaq.
Kəmənddən qurtulduq, bəndəmi düşək?
Zəncirdən qurtulduq, dərdəmi düşək?
Özümüz olmasaq, yalan dünyadı,
Özümüz olmasaq, talan dünyadı.

*22.02.2025*

## TƏNHASAN, ADAM

Çəkilib qınına belə yaşadın,
Tənhasan, tənhasan, tənhasan, adam!
Sandın ki, mənalı ömür daşıdın,
Tənhasan, tənhasan, tənhasan, adam!

Nə qonşu tanıdın, nə dost, nə tanış,
Nə bir dəyər gördün, nə də bir alqış.
Eqo xislətinlə ha gül, ha danış,
Tənhasan, tənhasan, tənhasan, adam!

Qapandım evinə, ev qalaçandır,
Hasarın dağ boyda, quş da uçammır.
Qapın yeddi kilid, heç kəs açammır,
Tənhasan, tənhasan, tənhasan, adam!

“Ailəmdən başqası yoxdur” – deyirsən,
“Sərvətim, mal-mülküm çoxdur” – deyirsən.
Gözə görünmürsən, gözə dəymirsən,
Tənhasan, tənhasan, tənhasan, adam!

Bu fani dünyanın cəzası bəlli,
Qoy olsun yaşın da lap iki əlli.
Nə oğlun görsənir, nə qızın gəlir,
Tənhasan, tənhasan, tənhasan, adam!

*25.04.2025*

## BAHAR

Qara bulud qanad çalır,
Çırpıntısı yağış olur.
İldırımlar qaval çalır,
Çaxnaşması alqış olur.

Torpaq açır sinəsini,
Yağış hopur sinəsinə,
Güllər qalxır sini-sini,
Torpaq altdan sinə-sinə.

Təbiət də insan kimi
Gülümsəyir, gah ağlayır.
Yer fəzada yaşıl gəmi,
Tanrım onu qucaqlayır.

*25.04.2025*

# POEMA

## AĞCABƏDİ ŞƏHƏRİNİN İLK ŞƏHİDİ



**Məhəmməd İsmayılzadə**
**Səfər oğlu**
*04.02.1969 - 25.12.1991*

Qarabağın aranında bir şəhər var,
Yaraşığı evlər, yollar, yaşıl bağlar.

“Ağcabədi” adlanır o, ta qədimdən,
Soruş onu doğmasından, ya yadından.

Deyər: “Ata ocağıdır Ağcabədi”,
Deyər: “Ana qucağıdır Ağcabədi”.

Neçə-neçə döyüş görüb bu şəhər də,
Neçə-neçə şəhid verib bu şəhər də.

Məzarları yan-yanadır şəhidlərin,
Hər birisi qələmində şairlərin.

Hər birisi unudulmaz qan yaddaşı,
Hər birisi Azərbaycan vətəndaşı.

Məzarlardan biri küskün, durmuşam lal,
Göydə solğun işıq saçır qəmli hilal.

Başdaşından boylanan gənc baxır mənə,
Fikrim keçmiş xoş günlərə gedir yenə.

O vaxt bu gənc şəkildəki kimi idi,
Çatmaqaşlı, yaraşıqlı milis idi.

Nur saçırdı paqonunda ulduzları,
Yollarından eləyirdi o, qızları.

O, bibimin ən sevimli nəvəsiydi,
O, Sünbülün, o, Səfərin meyvəsiydi.

İsmayılov Məhəmməddir onun adı,
Məhəmməddir bu ailənin ilk övladı.

Mənə "dayı" deyirdi o, hörmət ilə,
Onun qəlbi çırpınırdı şəfqət ilə.

Dörd bacının, bir qardaşın əziziydi,
O, Vətənin – ana yurdun dəlisiydi…

Zaman gəldi, ermənilər baş qaldırdı,
Duz-çörəyi tapdaladı, üzə durdu.

Göz dikdilər Azərbaycan torpağına,
Göz dikdilər aranına, yaylağına.

Havadarlar dayaq durdu iblislərə,
Silah verdi quduzlaşmış nacinslərə.

Azərbaycan təklənmişdi o illərdə,
Ordumuz yox, çarpışsın o faşistlərlə.

Evlər talan, torpaqlar qan, susur cahan,
Yağılarla üz-üzədir Azərbaycan.

Zəngəzurum, Qarabağım gedir əldən,
Qaçqınların səsi batır ah-nalədən,

İndi milis nəfərləri güman yeri,
Onlar Vətən fədaisi, dönməz geri.

Xocalıda qanlı ocaq çatılmışdı,
Məhəmməd də döyüşlərə atılmışdı.

Cəmillidə kəndlilərin əli yalın,
"Kömək!" -deyir oğul-uşaq, qoca, qadın.

Kiçik milis dəstəsi də gəlib kəndə,
Kənd düşübdür çox amansız bir kəməndə.

Döyüş gedir, düşmən güclü, milis zəif,
Nə bir silah, nə bir kömək vardır, heyf!

Məhəmməd də bunu duyur, anlayır ki,
Belə getsə, çox olacaq canlı itki.

Haraylayır: "Dönün geri, uzaqlaşın!
Tez aparın qocaları, uşaqları!

Mən qalıram, qoruyaram sizləri mən,
Etiraz yox, əməl edin sözlərimə!"

Düşmən topu, düşmən tankı hücumdadır,
Hamı getmiş, Məhəmmədsə tək ordadır.

Yağış kimi güllələrə sinə gərir,
Düşmən üstə qaya kimi o yüksəlir.

Güllə bitir, silah susur, susur o da,
O qovuşur ən müqəddəs şəhid ada.

Ağcabədi şəhərinin ilk şəhidi,
Cəmilli də bu şəhidin ilk şahidi.

Ağcabədi camaatı intizarda:
“Şəhidimin nəşi hanı, şəhid harda?!”…

…O günlərdən bir qərinə ötdü, şəhid!
Müharibə gör bir necə sərtdi, şəhid!

Atan, anan bu dərdlərə dözmədi ki.
Ağcabədi göz yaşına döndü sanki.

Simvolik bir məzar daşı təsəllimiz,
Dörd bacın və bir qardaşın təsəllimiz…

…İllər ötdü, qisas günü gəldi artıq,
Budur, ordum tükənməyən seldi artıq.

“Qarabağdır Azərbaycan!” nida oldu,
Azad olan Laçın oldu, Şuşa oldu.

Xankəndimiz xilas oldu qatillərdən,
Yumruq kimi bütövləşdi Ana Vətən!

44 gündə səngərləri keçdi ordum,
“Qisas!” deyib düşmənləri biçdi ordum…

…Ey Məhəmməd, ey şəhidim, ey itginim!
Arxayın ol, qurtaracaq bu nisgilin!

Qayıdasan yenə dogma torpağına,
Qayıdasan Ağcabədi ocağına.

Sevinəcək bacıların Natiqə də,
Tünzalə də, Elnurə də, Müşfiqə də.

Sevinəcək, şadlanacaq Emin qardaş,
El-obamız bu diləyə əmin, qardaş!

Bu gün zəfər günümüzdür, dinlə məni,
Sən Vətəni sevdin, şəhid, vətən səni.

Şeirim çiçək, məzarına çələngimdir,
Şeirim silah, sənə aid söz "Cəngim"dir.

*08.11.2025*

# SEVGİ DUYĞULARI

## ŞƏHİD MƏZARI ÖNÜNDƏ BİR QIZIN MONOLOQU

Səni son gördüyüm yadıma düşür,
Bəlkə də, ilk dəfə mənə baxırdın.
Ürəyim çırpınır, çırpınırdı hey,
Gözündən gözümə sevgi axırdı.

Axı nə biləydin, səni nə müddət
Gizli-gizli süzüb dururdum mən də,
Sənə deyiləcək çox sözüm vardı,
Sözlər korun-korun yandı sinəmdə.

Görürdüm, mərifət üzündən yağır,
Hörmət, izzət, şərəf sanki qanında.
Duyurdum, eşq dolu ürəyin vardır,
Daim hiss edirdim səni yanımda.

Sevgi etirafı eşitmədim mən,
Axı əsgər getdin elə həmin gün.
Kaş mən söyləyəydim sənə hissimi,
Peşmanlıq əzabdır indi mənimçün.

Sandım ki, səsini eşidəcəyəm,
Əsgər məktubuna qovuşacağam.
Sandım, Qarabağa qanadlanaraq
Səni səngərlərdən soruşacağam.

Axı nə biləydim, qızğın döyüşdə
Düşmənin gülləsi tapacaq səni.

Bilirəm, igidsən, dönməzdin geri,
Ax qoruyurdun Ana Vətəni.

Ordum qalib gəldi, sən şəhid düşdün,
Kədərin bir dünya, bir asimandır,
Tabutun gəzirdi min-min əllərdə,
Hamı söyləyirdi: "Şəhid cavandı!".

Mən səni sevmişdim elə gizlincə,
İndi məzarın da sevdiyim, şəhid!
Şəklin dodağımda, şəklin sinəmdə,
Daha nə söyləyim, nə deyim, şəhid!

Sən Vətəni sevdin, mən səni sevdim,
Sən elə Vətənsən mənə, şəhidim!
Bu görüş ilk görüş, son görüş deyil,
Yenə gələcəyəm, yenə, şəhidim!

Bu sevgi qürurum, qoy hamı bilsin,
Şəhid sevgilim var, şəhid eşqim var.
Mən də ilk eşqimi şəhid verirəm,
Mənim eşq məbədim bu şəhid məzar!
Mənim eşq məbədim bu şəhid məzar!

*07.04.2016*

## ARZULAYIRAM

Gözüm yolda, könlüm kövrək olalı,
Səba gəlişini arzulayıram.
Yaşım ötüb, gözüm yaşla dolalı,
O şən gülüşünü arzulayıram.

Daha öz-özümə qınaq olmuşam,
Sənli xatirəmə qonaq olmuşam.
Köksümdə çağlayan bulaq olmuşam,
O gənclik yaşını arzulayıram.

Tofiqəm, ayrılıq mənimlə birgə,
Bir tərəf aydınlıq, bir tərəf kölgə,
Qorxuram, qəlbimə qaranlıq çökə,
Ulduz sayrışını arzulayıram,
Ulduz sayrışını arzulayıram.

*26.03.2021*

## İNTİZAR

Nədən intizarla baxırsan mənə?
Qəlbinə nə damıb, nədən susursan?
Alnının yazısı nə deyir sənə?
Nədən nigaransan, nədən küsürsən?

Ömrüm dörd fəslin dördündən keçib,
Saçımın ağlığı zirvə qarımdır.
Zaman biçinçidir, ömrümü biçib,
İndi xatirələr sərvət, varımdır.

Mən də sənin kimi, nə etmək olar,
Məni də intizar üzür, haçandı.
Bizi bizdən edib ayrılan yollar,
Üfüqə uzanır, bizdən qaçandı.

Qəlbimiz qayğılı, adı intizar,
Mən səni düşündüm, sən isə məni.
Əsir xəzan yeli, gəlib son bahar,
Unut, qoy üzməsin intizar səni.

*16.06.2021*

## GÖZÜM NURU

"Gözüm nuru" deyirdin,
Dəyərini bilmədim.
Bu sevgi cilvəsinin
Əyarını bilmədim.

Zaman ötdü, vaxt ötdü,
Yaşım üstə yaş gəldi.
Bu sözü xatırladım,
Gözlərimdən yaş gəldi.

İndi tor görür gözüm,
Sən hardasan, əzizim?!
Gözümün qarasına
Bir çarə sən, əzizim!

Sevgin necə böyükmüş!
Çox gec anladım bunu.
Dünyada ən böyük pay
Göz nuru olduğunu.

İllərin arxasından
Qayıt, könlüm həmdəmi.
Qayıt, ol gözüm nuru,
Qayıt, bağışla məni!!

*11.10.2021*

## QIYĞACI BAXIŞIN XOŞUMA GƏLİR

Qıyğacı baxışın xoşuma gəlir,
Gülüm, düşüncələr aparıb səni.
Sənlə bir nəfəsəm tənha otaqda,
Ancaq şirin xəyal qoparıb səni.

Bilmirəm, hardasan, haralardasan,
Qəlbinin atəşi gözündən bəlli.
Göyün yeddi qatı sənə dar gəlir,
İlahi halın var, üzündən bəlli.

Sanki nur ələyir saçına göylər,
Sanki ağ mələksən, vücudun qardır.
Sanki planetlər yaşıl don geyib,
Sən harda varsansa, orda bahardır.

Qıyğacı baxışın xoşuma gəlir,
Çəkikgözlülərə oxşatdım səni.
Səni xəyalından ayırmadım ki,
Mən də xəyalımda oxşayım səni.

*19.12.2021*

## SEVGİ YOLDUR BİZƏ

Sevən qəlbin vardırsa,
Deməkk, mənalı həyat.
Qəlbin kinlə dolubsa,
Onu köksündən qopart.

Çox görmüşük sinəsi
Kobud, köntöy daşları.
Sevgisi mədə olan
Acgöz ağlı çaşları.

Bu qarışıq dünyada
Sevgi bir yoldur bizə.
Necə ki, çaylar axır
Sevə-sevə dənizə.

*09.01.2022*

## SƏN ÖZÜN GƏRƏKSƏN

Bir ürək fotosu göndərdin mənə,
Sadəcə bir foto, ürək fotosu.
Bəlkə, o fotonu qoyum mən elə,
Qutuya, adlansın "ürək qutusu"?

Bu ki, bir oyundur, aldanmaram mən,
Gəl mənə qəlbinin közünü göndər.
Eşqin tər çiçək tək qopsun dilindən,
Sən özün gərəksən, özünü göndər.

Dünyamız şəkillə dolub daşır, bax,
Hamı bir-birinə "nəmər" yollayır.

Bu saxta şəkillər sevgidən uzaq,
Hər kəs tələ qurub, kəmənd tullayır.

Mənə yaxın dayan, görüm mən səni,
Sevgini, hissini gözündən bilim.
Qəlbin elə çarpsın, döysün sinəni,
Sinən eşq dolumu? Sözündən bilim.

Dodağın "sevirəm!" desin, odlanım,
Yanağın allansın, heyranın olum.
Quru şəkillərə uyma, ay canım,
Sən mənə "can" söylə, qurbanın olun.

*04.09.2021*

## LAL SEVGİM

Hər səni görəndə... Ah, necə deyim?!
Qışda doğan günəş oluram sanki.
Sənin salamını aldığım anda
Bahar sünbülü tək doluram sanki.

Səni baxışlarım izləyirdi hey,
Sükutum ehtizaz, həyəcan idi.
Baxışım oğrundu, hisslərim gizlin,
Sanki ayım, ilim tək bu an idi.

Zaman ki, yetişdi, görmədim səni,
Daha uzaqdasan, çox-çox uzaqda.
İndi ürəyimi isitməyir ki,
Közərən ocaq da, yanan ocaq da.

Lal sevgim, görəsən, sənə bəllimi?
Sevgim qubar olub, dənər-dənərdir.
Bu sevgim elə saf, elə saf idi,
Platon eşitsə, heyrətlənərdi.

Bu gün xatirəsən payız ömrümə,
Qurtarıb arzum da, bitib sözüm də.
Bu susqun məhəbbət misralandıqca
Həzin bir iztirab doğur köksümdə.

*06.07.2023*

## ZAMAN NECƏ SƏRT İMİŞ!

Şəhərimiz çox kiçik,
Ancaq görmürdüm səni.
Qəlbimdə qəmli sükut,
Xatırladım dünəni.

Düşünürdün, görəsən,
O xoş günlər yadında?
Bəlkə də, unutmusan,
Yaddan çıxıb adım da...

Rastlaşdıq, nə təsadüf!
Gözlərindən tanıdım.
Bəlkə də, tanımazdım,
Sözlərindən tanıdım.

Sənsə kiçik nəvənə
Xoş söz deyirdin elə.

Yad tək yanımdan ötdün,
Keçib getdin nəvənlə.

Zaman necə sərt imiş!
Bizə qənim kəsildi.
İndi o nə ay, ildi,
İndi nə o fəsildi.

*02.05.2024*

## QƏRİBƏ GÖRÜŞ

Telefon edirəm: "Alo! Alo!"
Dəstəkdə sükut.
Susursan.
Sükutun "yox" deməkdir, deyəsən.
Sükutun
üstümə qar kimi ələnir,
Sükutun
payız yağışına dönüb
ruhuma çilənir.
Necə görüşüm səninlə,
necə görüm səni?
Etinasız baxışın
maqnit inadıyla
itələyir məni.
Əlçatmaz ənginliyə
uçur xəyalım,
Deyirəm, bəlkə,
yazdığım şeirimə dalım?
Sən şeirimi oxuyanda

hopum şeirimin ahənginə,
baxım gözlərinin rənginə.
Sən şeirimi oxuyanda
görüm qızaran yanaqlarını,
Öpüm misralarımı,
pıçıldayan dodaqlarını.
Duyum əllərinin təmasını,
Duyum isti nəfəsini.
İpək kimi zərif tellərin
toxunsun şeirimə,
toxunsun mənə,
Bəlkə, şeirim
səni insafa gətirə,
Alıb qanadlarına
səni mənə yetirə!?
Kim bilir?
Ya səbr!
XXI əsrdə
bu necə görüşməkdir, ilahi!
Görəsən,
oxuyacaqsanmı şeirimi?!
Görəsən,
oxuyacaqsanmı şeirimi?!

*09.01.2005*

## SEVGİ KARANTİNİ

*(mənsur şeir)*

Nə müddətdir, telefondur görüş yerimiz. Telefondur sevinc yerimiz, telefondur gülüş yerimiz. Ya göz-gözə danışırıq, ya səsimizi dinləyirik. Şirin günləri xatırlayıb qəmli-qəmli dillənirik: "Yəni bu bizik? Axı biz sevgi dəniziyik!"...

Nə edək, bu da bir sevgi sınağı. Hələ ki, unudaq əsən mehi, nəğməli yarpağı. Dünyamızı, bir də sevgimizi qoruyaq. Bir sən, bir mən, bir telefon, bir də tənha otaq... Nə edək, bu sevgimiz yeni. Adı "Sevgi karantini!"

*24.04.2020*

## XOŞBƏXT XƏYAL, DADLI YUXU

*(mənsur şeir)*

Yol gedirəm. Sanıram, sən də bu yoldasan. Çay sahilinə enirəm. Sanıram, sahildəsən. Günəşə baxıram, yenə sən. Aman! Yenə səninləyəm, Bu nədir, sevdiyim? Cismən ayrı, ruhən birgə?! Sən ruhumu görürsənmi? Görürsən, nə gözəl! Birlikdə addımlayaq bilməcəyə doğru... Ah, nə xoşbəxt xəyal, nə dadlı yuxu!

*18.06.2021*

# SEVGİ DOLU ŞEİR KİTABIM

*(mənsur şeir)*

Söz vermişdik, görüşdük, uzun ayrılıqdan sonra. Dayandıq üz-üzə, baxışdıq, gülüşdük uzun ayrılıqdan sonra. Bir az mən dəyişmişdim, bir az da sən. Lakin görüşümüz həmən idi, gülüşümüz həmən. Sənə gül bağışladım, bir də sevgi dolu şeir kitabımı. Bir də şirin sözlərimi, bir də həyəcanlı xitabımı. Ayrıldıq, yolumuz ümid yolu. Ayrıldıq, ürəyim şeir dolu... Telefona baxdım. Verdiyim gülü paylaşmışdın. Kitabım isə... Kitabım isə yox idi.

*24.06.2024*

# TƏKBƏNDLƏR

Şeytanı içində barındıran kəs,
Ha namaz qılginən, adam olmazsan.
Ömründə bir kitab oxumayan kəs,
Oxusan, bu qədər nadan olmazsan.

*18.06.2020*

* * *

Bu gün uşaq günü yox,
Hər gün uşaq günüdür.
Uşaq olan hər bir ev
Sanki ocaq kimidir,
Sanki qucaq kimidir.

*01.06.2020*

* * *

Ey özündən müştəbeh qafil, oyan!
İnsanlığın baş tacı ağıl, oyan!
Olma şərbaz, hiyləgər, paxıl, oyan!
Haqqa sən heç vaxt demə nağıl, oyan!

*19.06.2020*

* * *

Pambıqdan kəndir olduq,
Küfləsiz təndir olduq.
Oxuduq, dəyər görək,
Oxuduq, tənqid olduq.

*20.06.2020*

* * *

Gördünmü, bu dünya əfsanə imiş!
Dünyaya sığınan divanə imiş.
Hər kəsi aldadır öz cilvəsiylə,
Fani o. Nə sənə, nə mənə imiş!

*21.06.2020*

Dünyada yenilik Adəmlə Həvva,
Qalanı təkrardır, təkrardır, təkrar.
Yerdə, göydə, suda canlı nə varsa,
Olanı təkrardır, təkrardır, təkrar.

*21.06.2020*

* * *

Dünyanın mizanı dəyişdi, vallah!
İnamı, imanı dəyişdi, vallah!
Qorxunc Şər Xeyirlə çarpışır indi,
Gözəgörünməzlə döyüşdü, vallah!

*23.06.2020*

* * *

Dünya daha seçdi ağı qaradan,
Düşmən qoparmışdı dağı arandan.
Ruhlar torpağıydı Qarabağımız,
Ona həyat verdi Ali Komandan!

*24.12.2020*

* * *

**Ş**eirim qanadlanır, şeirim canlanır,
**U**nudur ağrını, acını daha.
**Ş**əhərim ulduz tək sinəmdə yanır,
**A**lnım indi açıq, şükür Allaha!

*25.12.2020*

* * *

Mənə yaşlı demə, ruhum cavandır,
Könlümə toxunma, könlüm sınandır.
Oxusan şeirimi misra-misra sən,
Duyarsan, hər sözüm bir asimandır.

*31.01.2021*

* * *

Bütöv qələbəyə ehtiyacım var,
Yarımçıq qələbə doyurmur məni.
Xocalı, Xocavənd, Xankəndi hanı?
Uruslar oraya qoyurmu məni?

*01.02.2021*

* * *

Nəsillər dəyişir fəsillər kimi,
Fəsillər dəyişir nəsillər kimi.
İnsanı götürüb aparır zaman,
Zaman acı verir nəhs illər kimi.

*01.02.2021*

* * *

Yaradan gözünü yumubdur, deyən,
Yaman çoxalıbdır tərəzi əyən.
Doğrunu, sorğunu lağa qoyur ta
"Qarın qardaşdan da irəli" -deyən.

*01.05.2021*

* * *

Paraddır, illərim önümdən keçir,
Hər ilim aramla könlümdən keçir.
İlim var, acıdır, ilim var, şirin,
Acı il dərd olub canımdan keçir.

*02.02.2021*

* * *

Sınıq sazın telləri
Sınıq da səda verir.
Saz vücudu saz olsa,
Gör, necə əda verir!

*10.03.2021*

* * *

Çalışdım ki, gizlədəm,
Kədərim pünhan idi.
Elə ki, gəldi qələm
Sirrimi şeirim dedi.

*11.03.2021*

* * *

Dünya öz işində, öz gərdişində,
Kainat yenə də pərvərişində.
Haramla halalı ayırmaq çətin,
Adəm övladları öz vərdişində.

*17.03.2021*

* * *

Daha çaşqın qalıb haçandı Allah,
Haqq-nahaq seçməkdən usandı Allah.
Bilməz ki, hansına yardım eləsin,
Qovan "Allah" -deyir, qaçan da -"Allah!"

*17.03.2021*

* * *

Barı olmasa da, söyüd kəsilməz,
Atadan övlada öyüd kəsilməz.
Bəndədən kəsilər ümidin, ancaq
O uca Allahdan ümid kəsilməz.

*04.04.2021*

* * *

Bir ilxıya basqın etsə aslanlar,
İlxı qaçar, ya vurnuxar, güc anlar.
Basqın etsə ilxı üstə çaqqallar,
Təpiklənər, bu səhvini gec anlar.

*02.06.2021*

* * *

İlham aşıb-daşan çay, onu saxlamaq olmaz,
Söz vəyhin üzük qaşı, hissiz oxumaq olmaz.
Min-min şeir istəyir yerləşsin söz mülkünə,
Nizami söz mülkündə, ona toxunmaq olmaz.

*05.05.2021*

* * *

Həyat meydanında nəyim var mənim,
Talayıb, tarayıb, alıb getdilər.
İlk bahar özgənin, son bahar mənim,
Meydanda tək idim, qalib getdilər.

*08.07.2021*

* * *

Yol yoldaşı oldun, dostluq başlayır,
Dostluq xəyanətin yoldaşı deyil.
Dostluq qiymətlidir, atma kənara,
O, yolu bağlayan yol daşı deyil.

*31.08.2021*

* * *

İnsan yaman dəyişib,
Götürür qınaqları.
Daha görməyirəm mən
Qızaran yanaqları.

*23.11.2022*

* * *

Zaman bizi sovurdu xəzan yarpağı kimi,
Ancaq unutmadım heç sizi, gənclik dostlarım.
Hər biriniz bir evin yanar ocağı kimi,
Siz çarpan ürəyimin közü, gənclik dostlarım.

*05.12.2021*

* * *

Bu dünya boşalan, dolan dünyadı,
Nəyi veribdirsə, alan dünyadı.
Şəhriyar çox doğru deyibdir, qardaş,
Dünya başdan-başa yalan dünyadı.

*05.01.2022*

* * *

Köhnə divarlara boya çəkilib,
Torpaq bəhrəlidir, hər yan əkilib.
Bazarı al-əlvan, çeşidi bol-bol,
Heyf, insaf, vicdan göyə çəkilib.

*06.02.2022*

* * *

Dünya öz işində, ona toxunma,
O bilir, nə zaman soyuq olacaq,
O bilir, nə zaman isti olacaq.
Sən onun işinə qarışsan əgər,
Sənin mövcudluğun çətin olacaq.

*06.02.2022*

* * *

Şeir misra-misra hörüldüyündən
Onu misra-misra ovlamaq gərək.
Şeir bulaq kimi, axan hər sözü
Oxucum, vaxtında qavramaq gərək.

*17.02.2022*

* * *

Bu dünya bir yumaq, çözülən kimi
Yalanı, fitnəsi göz qamaşdırır.
Qövsi-qüzeh qədər rəngli yalanı
Qırır planetlər zəncirini də,
Hətta Allahı da belə çaşdırır.

*17.03.2022*

Söz kənkanı şairik, kəpirə can atırıq,
Daim arıtlayırıq söz bulağın gözünü.
Söz bulağı durulur, arzumuza çatırıq,
Durna sürbəsi olur misraların düzümü.

*17.03.2022*

* * *

Əzizim, baxdım belə,
Ömrümü yaxdım belə.
Bazarçı söz sırıdı,
Lal-dinməz baxdım belə.

*18.03.2021*

* * *

Cevizlər ləpələndi,
Salxımlar gilələndi,
Min bir arzum, istəyim
Bir anda güllələndi.

*23.03.2021*

* * *

Xocalı hələ də əsir-yesirdi,
Sanki barmağımın biri kəsirdi.

*26.02.2022*

* * *

Şeir dağ çayı tək susan deyildir,
Onun nəğmələri haqqın səsidir.
Şeiri sevməyən insan deyildir,
Şeir şairin yox, xalqın səsidir.

*03.08.2022*

* * *

Adam var, doğrunu sipər eləyir,
Haqqın söylədiyi yol ilə vurur.
Adam var, hiyləni çəpər eləyir,
Sağı göstərərək sol ilə vurur.

*24.07.2022*

*   *   *

Sanmasınlar, əzildik,
Sanmasınlar, üzüldük.
Yağının düyünündən
Millət olub çözüldük.

*11.10.2023*

*   *   *

Ey Şeyx Nizami, ey ehtişamı ucalan!
Ey dünyada şöhrəti, şanı ucalan!
Olmaz, olammaz ki, sənin kimi aləmdə
Beyti, evi, məktəbi, kəlamı ucalan!

*02.09.2023*

*   *   *

Gülüşün, baxışın əridi, getdi,
Könlün nələr deyir, dumanda itdi.
Həyat sona yetdi, sən sona yetdin,
Səndən tək xatirə bu məzar daşı.

*20.11.2023*

*   *   *

Ermənіyə güvəndik,
Qəfildən güllələndik.
İrəvandan qovulduq,
Nar kimi gilələndik.

*15.03.2024*

*   *   *

Kədər mənə deyir ki, məni dost bilmə hər an,
Dost bilsən, uduzarsan, qəlbi viran qalarsan.
Gözünü dik sabaha, orda ümid görünür,
Orda həyat görünür, orda inad görünür.

05.07.2024

# DÜŞÜNCƏLƏRİM

Məktəblərdə virusa görə tədris aprelin 20-sinə qədər dayandırıldı. Bu, şagirdlərimizin, xüsusən ibtidai sinif şagirdlərinin təhsilinə ciddi təsir edəcək. Bəs nə etməli? Əziz şagirdlər, səhhətinizi qorumaqla bərabər, boş vaxtlarınızı mütaliəyə sərf edin. Ədəbiyyatımızı, tariximizi... öyrənin. Keçilmiş dərsləri təkrarlayın, cib telefonunuzdan uzaq durun. Karona bəlası qurtarana qədər qoy ata-ananız da bu işdə sizə kömək etsin. Şeirlərinin birində sizə müraciətlə yazmışam:

Əyil kitablara, nicatımız o.
Öyrən addım-addım, bil addım-addım.
Qoy döyüş silahın biliyin olsun,
Çalış, boş keçməsin heç bir saatın.

*21.03.2020*

* * *

Yer kürəmizi məhv etmək nə qədər də asanmış. Əlbəttə, şeytan meydan oxuyarsa. İstəyinə çatan Şeytan Antraktidada sal buzların üstündə əyləşib insansız qitələri soyuq baxışları ilə seyr edəcək, lovğa-lovğa buz aynada özünü süzərək güləcək. Tənha şeytan. Ey insanlar, şeytanın arzusunu ürəyində qoyun. Axı Tanrı sizə ağıl və zəka bəxş eləyib. Birləşin, onun bir gözünü də çıxarın, onu kor edin və deyin: "Lənət kor şeytana!"

*24.03.2020*

* * *

Onsuz da texnologiya insanları fərdiləşdirirdi. İndi bu qorxunc karona insanları evə qapadı. Ya

tənha adam, ya ər-arvad, ya da kiçik ailə. Daha heç kim.

E.Heminqueyin "Qoca və dəniz" povestindəki qoca Santiyaqo yadıma düşdü. Santiyaqo, dəniz, balıq və səma. Daha heç kim. Hazırda tənhalığımız mübarizə formasıdır. Qorxunc şərə-virusa qarşı. İnşallah, ona qalib gəlib sosiallaşarıq. Evdə qal!

*29.03.2020*

* * *

Dünyanın sonu haqqında nə qədər filmlər çəkilib, əsərlər yazılıb... Qəribədir, sanki insan Yer kürəsinin yox olmasını istəyir. İnsan macəra axtarır, odla oynamağı sevir. Hətta öz həyatı bahasına, düzənin pozulması bahasına. İndi bu gerçək ümumdünya fəlakəti – karona bu tip insanları oyatdımı, görəsən?... Onları heç cür anlaya bilmirəm.

*30.03.2020*

* * *

Bəlkə, doğrudan da, mühafizəkaram? Sosiallaşma tərəfdarı olduğuma görə. Karona virusu peyda olandan fərdiyyətçilik dəyərə minib. Fərdiyyətçilik inkişaf deyil, qardaş! Eqo doğuran şey fəlakətdir, qardaş! Qoy mən mühafizəkar adlanım. Ancaq haqlı olmaq duyğusu mənimlədir:

Doğmalıq, birgəlik insana məxsus,
Bundan qaçaq düşür insanlar, əfsus!

*24.04.2020*

* * *

İdman xəbərləri: Filan futbolçu filan futbol klubuna filan milyon dollara satıldı. Filan klub filan futbolçunu filan milyon dollara satın aldı...

Sanki qul bazarıdır. Fərq bundadır ki, qul milyonçudur. Daha milli idmandan, milli futboldan və bir də milli qürurdan söhbət gedə bilməz. İdman xəbərləri...

*01.05.2020*

* * *

Ailə-Allahın lütfüdür, ali dəyərdir. İcmadır. Ləyaqətdir. Əminlikdir.

*04.05.2020*

Çat... Çat ki yarandı, zaman keçdikcə genişlənir və dərinləşir. Yarğan meydana çıxır. Elə olur ki, daha üstündən atlamaq olmur. Şuşada inauqurasiya mərasimi keçirən qaniçən ermənilər çatı dərinləşdirdilər və geniş yarğana çevirdilər. Buyur, hünərin var, üstündən atlan. Hünər zamanıdır!

*25.05.2020*

* * *

Sükut. Sükutum etirazımdır, sükutum ehtizazımdır və sükutum amansız cavabımdır.

*25.05.2020*

* * *

“Travma” psixoloq dilinin əzbəri olub. “Uşağı tənbeh etmə, “travma alar”. Uşaq çətinlik görməsin, aclıq-toxluq nədir bilməsin, varı-yoxu bilməsin, məzarlıqda mərhum qohumları, doğmaları ziyarətdə iştirak etməsin, qorxar, “travma alar”. Bax, belə...

Psixoloq peşəsi təzə peyda olub və o, məsləhətçiyə çevrilib. Axı uşaq çətinliyi, enişi-yoxuşu görməsə, insan kimi yetişərmi? Maksim Peskov həyat universiteti keçməsəydi, Qorki ola bilərdimi? Müşfiqi də elə, M.İbrahimovu da elə, Sabiri də elə, C.Cabbarlısı da elə... Travma psixoloq sözüdür. Başqa heç nə.

*06.06.2020*

* * *

Pandemiya təhsilə zərbə vurdu. Bu il on biri başa vuran şagirdlərin yaddaşında 2020-ci il acı xatirə olacaq. Son zəng sükutla qeyd edilir. Ancaq bu, şagirdləri ruhdan salmamalıdır. Həyat qarşıdadır, təhsil qabaqdadır. Mən də müəllim olaraq on birlərə "Bayramınız mübarək!" deyirəm. Əziz məzunlar, həyat yolunuzda həmişə xoşbəxtlik zəngləri çalınsın.

*06.06.2020*

* * *

Söz də şairi yorarmış. Sözlər yordu məni. Sözü sözlər içindən aradım, arıtlatım, ərsəyə gətirdim, duyğularımı ona verdim. Sandım, oxucum sözləri mənim qədər anlayacaq, sirrinə dalacaq. Təəssüf, kəşfim olan sözlər hərdən ayaqlar altına düşür. Sözlər yordu məni...

*14.03.2020*

* * *

Bu gün yaxın dostum, gözəl insan, ədəbiyyat sahəsində əvəzsiz xidmətləri olan professor Hüseyn Həşimli rəhmətə getdi. Heç yaşı da çox deyildi.

Heyf sənə, əziz dost! Allah sənə rəhmət eləsin! Kədərim sonsuzdur!

*20.06.2020*

* * *

Şeiri duymaq, anlamaq və təhlil etmək şeiri yazmağa bərabərdir. Yazmaq könül çırpıntılarını kağıza pıçıldamaqdır. Şeiri oxuyaraq sevmək bu pıçıltıları aydın eşitməkdir. O an yazan da, oxuyan da ilahi duyğu içindədir. Bu duyğu bir anlıqdır, ancaq keçici deyil. Bu, ciladır, işıqdır. Nəhayət, insan qəlbində kök salan mənəvi eşqdir. Bir sözlə, şair və oxucu qarşılıqlı enerjidir.

06.07.2020

* * *

Düşmən cəbhənin müxtəlif yerlərində tez-tez müharibə ocaqları yaradır. Dünən Tovuz rayonunda bir daha buna şahid olduq. Sanki Paşinyan deyir ki, ay Azərbaycan, hücum elə, Qarabağı geri al, mənim də canım qurtarsın, ermənilərin də. Biz isə deyirik: "Bu, erməni təxribatıdır". Televiziya kanallarımızda bir siyasi şərhçimiz deyir ki, pandemiyanın bu vaxtında ermənilər təxribat törədir. Qalırsan məəttəl. Qardaş, hansı dövr olur olsun, öz halal torpaqlarımızı geri almaq haqqımız deyilmi? Di başla da bə!... Qalırsan məəttəl!

*13.07.2020*

* * *

"Təxribat" sözü gözümdən yaman düşüb. Erməni gərək "təxribat" törədə ki, ona cavab verək? "Təxribat" sözü gözümdən yaman düşüb...

*16.06.2020*

* * *

Mitinq etdilər ki, dövlətə dəstək olsunlar, ancaq karona virusa dəstək oldular. Emosiya ağıldan və düzgün qərardan irəli olmasın gərək.

*17.07.2020*

* * *

Həsən bəy Zərdabi "Əkinçi" yaratdı. İlk qəzetçi olaraq mətbuatımızın əsasını qoydu. "Əkinçi" həm dilimizə rövnəq verdi, həm də millətimizin təfəkküründə şum edib müstəqillik toxumu səpdi. Allah bu fədai ziyalımıza rəhmət eləsin.

*22.07.2020*

* * *

Deyirlər, Los Ancelesdə, Belçikada və digər yerlərdə baş tutan mitinqlərdə ermənilər azərbaycanlıları döyüblər. Onlar 3-4 min nəfər olubdur, biz isə 50 nəfər. A balam, niyə? Axı özgə vaxt deyirik ki, onlar yer üzündə heç 10 milyon da deyillər. Biz isə 50-60 milyonuq. Hələ türkün sayını demirəm. Bir kərə papağımızı qarşımıza qoyaq, düşünək: "Axı ermənilər bu az sayla bizə necə meydan oxuyurlar? Nə olar, bir kərə papağımızı qarşımıza qoyaq və düşünək.!

*25.07.2020*

* * *

Minlərlə peyğəmbər, ilahi kitablar, minlərlə müdrik söz sərrafı şair, filosof insanı ülviyyətə səslədi, sevgiyə, məhəbbətə çağırdı. Təəssüf, insan yenə bildiyindən qalmadı. Macəra axtardı, nəfsinin

qulu oldu, özgə malına göz dikdi, təbiətlə savaşdı, oturduğu budağı da kəsməkdən çəkinmədi. İlahə Femidanın ədalət tərəzisini əydi ki, əydi. İ N S A N! qəribə səslənir!

*31.07.2020*

* * *

Oyalanmaq pis şeydir. Oyalanmaq imitasiyaya bərabərdir. Makedoniyalı İsgəndər Qordo düyününü aça bilməyəndə qılınca əl atıb onu bir zərbə ilə parçaladı.

Oyalanmayasan gərək. Axı zaman gözləmir.

*02.08.2020*

* * *

Əgər planetimizdən kənar svilizasiyanın nümayəndəsi səndən soruşsa ki, haralısan? Cavab verəcəksən: “Yer planetindənəm!.” Bu zaman hansı millətdən, kənddən, şəhərdən və hətta ölkədən olduğunu deməyə ehtiyac duymayacaqsan. Anlayacaqsan ki, Yer kürəsi sənin vətənindir.

*06.08.2020*

* * *

Hər şeyi poetik dildə söyləməyə ehtiyac yoxdur. Bəzən fikirlərini adi və səmimi dildə ifadə edə bilərsən. Təki bu fikirlər sənin qəlbindən süzülsün, səni tamlığın ilə tanıtsın.

*07.08.2020*

* * *

Əvvəllər müəllimləri yeniliyə uyğunlaşdıran, təkmilləşdirən Müəllimləri Təkmilləşdirmə İnstitutları var idi. İndi müəllimləri hey imtahan edirlər.

Sanki müəllimlərin biliyi, öyrətmə metodu və s... 60-80 test sualını cavablandırma ilə məlum olur. Qəribədir. Müəllimlərin necə stress keçirtdiklərini təsəvvür edin. Kimi sındırırsan, a zalımoğlu?

*08.08.2020*

* * *

Ənənə min illərin təcrübəsindən süzülür, durula-durula bu günlərə gəlir, millətin xarakterinin, təfəkkürünün məhək daşına çevrilir. Milləti fərqləndirən ən mühüm əlamətdir ənənə. Ənənə adətə söykənir və millətin ünvanına möhürlənir. Kökə bağlanmayan yeni ənənə qan yaddaşından uzaq olduğuna görə bəlaya dönür, gülünc görünür. Yeni toy adətləri kimi, Avropanı yamsılayan saxta parıltılar kimi. Ənənə zəncirindən halqa götürüldükdə zəncir parçalanır və gərəksiz olur. Ənənələrimizi qoruyaq. Millət olaraq seçilmək və yaşamaq istəyiriksə.

*15.08.2020*

* * *

Allah nə qapı açır, nə də qapı bağlayır. Allah sənə ağıl və ruh verib. Qapını açan da sənsən, bağlayan da sənsən.

*16.08.2020*

* * *

İnsafdan, ədalətdən danışmaq hələ ona əməl etmək deyil. Necə ki, hamı cənnət arzulayır, ancaq heç kəs ölmək istəmir.

*10.09.2020*

* * *

Əgər toplasan, iki qram çəkisi olan karona virus dünyanı yenidən tərpətdi. Ancaq hələ də bir ovuc, yəni iki qram erməni işğalçılarını Qarabağdan tərpədə bilmirik.

*12.09.2020*

* * *

Əlin günəşə çatmırsa, narahat olma, ilhamını ona uzat. O çatar. Əlin Allaha çatmırsa, narahat olma. Dualarını ona uzat. O çatar.

*12.09.2020*

* * *

Görəsən, şairə xanımların bizim kimi ilham pərisinə ehtiyacı olurmu?

*17.09.2020*

* * *

Əsil poeziya sandığında qiymətli daşlar çox-çeşidlidir. Hamısı da dəyərlidir. Onların bəzisini "bəyənmirəm" deyib qırağa atmaq olmaz. Bəzən unudulmuş şeir zamanında pələngə dönür. Xəlil Rza Ulutürkün, Mirzə Ələkbər Sabirin, Məmməd Arazın şeirləri kimi. Bəzən də sükutla qarşıladığın lirik bir şeir qəflətən səni oyadır, ruhunu ehtizaza gətirir. Aktuallıq zamanın diktəsindədir.

Poeziyanı sevin. İnsanlığın palitrasıdır poeziya. Hətta Allahın kəlamları da poetikdir. Hər kəs üçündür poeziya.

*21.09.2020*

* * *

"Utan utanmazdan, qorx qorxmazdan". Demək ki, utanmaz ermənilərdən utanaq? Qorxmaz

ermənilərdən qorxaq? Bu nə qəribə atalar sözüdür? Belə etdik ki, iki yüz il başımıza od ələdilər.

*23.09.2020*

* * *

Ordumuz xilas yürüşünə başlayandan qəlbim fərəhlə döyünür. Hər kəndimiz, hər şəhərimiz düşmən işğalından azad olunduqca qəlbim sanki bütövləşir. Bütöv olmaq, vahid olmaq, güclü millət olmaq nə gözəl şeymiş, qardaş! Qarabağdır Azərbaycan! Qarabağdır Şuşa!

*25.10.2020*

* * *

Noyabrın üçü 63 yaşı tamamladım. Ancaq ad günümü keçirmədim. Karonadan 14 günlük karantində olduğuma görə. Ancaq inanıram. Şuşa azad edildiyi günü həm də ad günüm kimi qeyd edəcəyəm. Qarabağın azad olunduğu gün mənim yenidən dünyaya gəldiyim gündür.

*03.11.2020*

* * *

Vəhşilik və yalan erməninin xislətindədir. İki yüz ildən çoxdur ki, o, bu keyfiyyətini daha da "zənginləşdirib". Bir ovuc darı qədər olsalar da, özlərini seçilmiş millət kimi təqdim edirlər. Onların qurduğu bu eybəcər mifi inşallah ki, şanlı ordumuz darmadağın edəcək, dünyamız erməniçilikdən, erməni xislətindən qurtulacaq.

*04.11.2020*

* * *

Laçın dəhlizi və Şuşa Qarabağın tale açarı... Erməni faşizminin sonu. O böyük günü gözləyirik. Sən buna qadirsən, Azərbaycan əsgəri!

*06.11.2020*

* * *

Bircə şeir də yaza bilmirəm. Axı ordumuz hazırda dastan yazır. Bu nəhəng dastan qarşısında mənim yazdığım şeirlər nədir ki.

*07.11.2020*

* * *

Mənim yazdığım mürəkkəblədir. Ordumun yazdığı qanladır. Mənim yazdığım mənim səsimdir. Ordumuzun yazdığı əlli milyonluq Azərbaycanın nəfəsidir.

*07.11.2020*

* * *

8 Noyabr – üzük qaşı Şuşa şəhərimizin azad edildiyi Böyük Gün!!! Azərbaycan, gözün aydın! Eşq olsun Azərbaycan ordusuna! Eşq olsun Ali Baş Komandanımız İlham Əliyevə!!!

*08.11.2020*

* * *

Şuşa qalamız işğaldan qurtuldu. İndi növbə Xankəndinindir. Elə ki, bu şəhər də azad edildi, Pənahəli xanın və İbrahim xanın məzarlarını ziyarət etməyə ehtiyac duyulacaq. Axı Qarabağı onlar bizə əmanət ediblər. Axı Xankəndi və Şuşa şəhərlərini onlar qurublar. Onların ruhunu şad etmək gərək.

*08.11.2020*

* * *

Zəfərimiz mübarək! Status olmayacaq! Bax, ən böyük arzumuz bu idi. Ali Baş Komandanımız demiş: "Cəhənnəmə getdi status!"

Bir də Naxçıvanımızı ana Azərbaycana qovuşduracaq kommunikasiya xətləri. Bundan gözəl nə ola bilər! Qarabağdır Azərbaycan! Qarabağdır Xankəndi!

*10.11.2020*

* * *

"Miatsum". Hansı miatsum? Hardadır o miatsum? Gorbagor etdik miatsumu. Darmadağın etdik miatsumu. Qarabağdır Azərbaycan! Qarabağdır Şuşa! Qarabağdır Xankəndi!

*11.11.2020*

* * *

Qazax rayonunun yeddi kəndi də işğaldan azad ediləcək, öz sahibinə qaytarılacaq. Bəs Kərki kəndi? Bu kənd Azərbaycanın ilk işğal edilən torpağıdır. Sədərək rayonunun Ermənistan sərhədində yerləşən bu kənd öz halal sahibinə qaytarılacaq. İnşallah!

*13.11.2020*

* * *

İşğaldan azad edilən kəndlərimizi və şəhərlərimizi televiziya kanallarında tez-tez göstərirlər. Hər dəfə də xarabaya döndərilmiş, erməni xislətinə məruz qalmış bu kənd və şəhərlərə baxmaqdan doymuram. Axı 30 ildir ki, bu torpaqların həsrəti ilə yaşayırıq. Bu torpaqlar yenidən cənnətə çevriləcək.

Yenidən xalqımızın yaşayış məkanı olacaq. Tezliklə. Çox sevinirəm.

*13.11.2020*

* * *

Ermənilər Azərbaycana təzminat ödəməlidirlər. Dilənçinin papağı yoxmu? Papağını versin. Yoxdursa, torpağımızı – Zəngəzurumuzu versin. Amansız düşmənə nə mərhəmət, nə güzəşt?

*15.11.2020*

* * *

Dörd həftə evimdə oturtdu virus,
Hey yoxladım, çıxdı pilus ki, pilus.

*22.11.2020*

* * *

Dekabrın onunda paytaxtımız Bakıda düşmən ordusunu darmadağın edən Azərbaycanın müzəffər ordusunun möhtəşəm paradı olacaq. Azadlıq meydanındakı tribunanın önündən dəmir nizamla keçən qalib əsgərlərimizi Ali Baş Komandan İlham Əliyev və Türkiyənin prezidenti Rəcəb Təyyub Ərdoğan salamlayacaq. Türk silahlı qüvvələrinin bir qrupu bu qələbə paradında iştirak edəcək. Dünya bu möhtəşəm paradı izləyəcək. Var olsun ordumuz! Var olsun Türkiyə-Azərbaycan qardaşlığı. Var olsun Azərbaycan!

*09.12.2020*

* * *

Narahatçılıq insani duyğudur, məsuliyyətdir. Narahatçılıq axtarışdır, mübarizədir. O, biganəlikdən və süstlükdən uzaqdır, dinamikadır, səbrin sərhəddi-

dir. Narahatçılıq rahatlığa qədərdir və o, inam və etibara qovuşanda sona çatır.

*25.12.2020*

* * *

Keçmiş təcrübədir gələcəyə getmək üçün. Babək olmasaydı, Mübariz İbrahimov olmazdı. Şah İsmayıl Xətai olmasaydı, İlham Əliyev də olmazdı. Azərbaycan Xalq Cümhuriyyəti olmasaydı, Azərbaycan Respublikası da olmazdı. Oğuzlar olmasaydı, biz Azərbaycan türkləri də olmazdıq. Adət-ənənələrimiz olmasaydı, indi milli varlığımızdan danışa bilməzdik.

*30.02.2021*

* * *

Barlı ağacları düşünürəm. Bar verən də onlardır, barı ayaqlara atılanlar, budaqları qırılıb əzilən də onlardır. Qəribə dünyadır...

*10.04.2021*

* * *

Tələsirik... Həyatımız bahasına da olsa, tələsirik... Ən kiçik arzularımız üçün də tələsirik. Bir anda gözümüz güzgüyə sataşır: “Bir il əvvəl belə deyildim axı, ilahi! Bir az yerişimiz, bir az istəyimiz, bir az da  tamahımız səngiyir... Sonra... Sonra hər şey yenidən başlayır. Tələsirik...

*30.06.2021*

* * *

Mən dağları niyə sevirəm? Duruşuna görə, əzəmətinə görə, qüruruna görə, göy üzünə yaxın olduğuna görə, buz kimi saf bulaqlarına  görə... Dağlar

qoynunda yaşayan xalqlar dağlar kimidirlər. Azərbaycan dağlar ölkəsidir.

*5.07.2021*

* * *

Harmoniya. Xəstə insan üçün bir həb qədər vacib olan ahəng. Harmoniya yoxdursa, insan qəlbi təlatümlə çırpınacaq, həyatın axarı çilik-çilik olacaq. Yer kürəmizin özü də harmoniyaya möhtacdır. Saflıq, nikbinlik, ülvilik yağır harmoniyadan. Gəlin qoruyaq onu. İnsanlıq naminə.

*16.07.2021*

* * *

M.Ə.Sabirin "Hophopnamə"sini yenə axıra kimi oxudum. Əlbəttə, bu kitabı neçənci dəfə oxuduğumu unutmuşam. Ancaq bu dəfəki mütailədə bir məsələ diqqətimi çəkdi. Necə olur ki, qüdrətli satirik şairimiz, "Şairəm, əsrimizin ayinəsiyəm" -deyən şairimiz fitnəkar ermənilərin əməllərindən bir dənə də şeir yazmayıb?! ("Beynəlmiləl" şeiri ermənilərlə müsəlmanları dostluğa çağırırdı). Bu, mənə çox təəccüblü görünür. Qəribədir.

*04.09.2021*

* * *

Rəssam rənglərlə yaradır, heykəltaraşlar daşla. Xalçaçı naxışla yaradır, musiqiçi səslə... Bacarırsan, sən də yarat rənglə, səslə, daşla, naxışla... Ancaq söz ilə, sözün gücü ilə. Sözdür yazanın baş tacı:

Sözün qüdrətindən əldə var açar,
O, bəzən güldürər, bəzən ağladar.

*(N.Gəncəvi)*

*12.06.2024*

*  *  *

Tehranda səfirliyimizə atılan güllə inamımıza atılan güllədir:

İran, sənə güvənirdik,
İndi sənə noldu belə?
Çiçək əkdik ətir görək,
Nə etdik ki, soldu belə?

*27.01.2023*

*  *  *

Nağıllardan bilirik ki, küpəgirən qarıların, ifritələrin dırnaqları uzun olur. İndi qadınlarımızın, qızlarımızın əksəriyyəti uzun dırnaqlıdılar. Məncə, bu dırnaqlar tənbəllik və meşşanlıq əlamətidir. Yəni qab yumur, ev işləri görmür, xörək bişirmir, uşaq saxlamır və s... Gözəllikdirmi? Yaraşıqdırmı? Bunu kişilərdən soruşan yoxdur. Bəs gigiyena? Bəs sanıtarıya? Buna nə deyirsiniz? Bu moda kütləvi hal alıb. Kaş 50-ci, 70-ci, 80-ci illər olaydı. Necə gözəl idi qadınlarımız! Onlar geyimləri ilə, səmimiyyətləri ilə əsil Azərbaycan gözəlləri idilər.

*23.05.2023*

*  *  *

Ordumuzun zəfəri o zaman əminlik yaradacaq ki, bayrağımız Xankəndində dalğalanacaq. İnşallah, bu günü məhz bu yaxınlarda görəcəyik. Gözlərimiz səndədir, Azərbaycan əsgəri!

*20.09.2023*

*  *  *

Qarabağdan, Xankəndindən köç edən qoca ermənilərə mərhəmət göstərməyin. Bu qoca ermənilər

Birinci Qarabağ müharibəsində erməni qoşunlarının tərkibində Qarabağın dinc azərbaycanlı əhalisinə divan tutublar.

*30.09.2023*

* * *

Fikir verirəm ki, camaat arasında alim alim dilində, pedaqoq pedaqoq dilində, prokuror prokuror dilində, məmur məmur dilində, masabəyi masabəyi dilində və s… danışır. Bəs xalq dili necə olsun? - "Komedixana" tamaşa proqramını çox sevirəm (hərçənd ki, bəzi tamaşaları duzsuz olur). Ona görə sevirəm ki, dilimizin alt qatına qədər enir, gündəlik həyatımızdakı canlı dilimizdə danışırlar. Xalq dili dilimizin mina qatıdır. Ondan imtina etsək, dilimiz "gəzəri tabuta bənzər". (M.Araz) Xalq arasında rəsmi dil keçməz. Danışan zaman zəngin, dolğun, rəngarəng, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, "ləzzətli" canlı xalq dilində danışaq "Komedixana"dakılar kimi.

*03.12.2023*

* * *

Aygün Bəylər – əvəzsiz müğənni. Aygün Bəylər – sənət fədaisi. Aygün Bəylər – Əbədiyaşar tut ağacı. Aygün Bəylər – boyasız, maskasız milli sənətkar. Aygün Bəylər – el qızı. Aygün Bəylər – Azərbaycan qadını. Allah sənə rəhmət eləsin, böyük nəğməkar!

*07.01.2024*

* * *

Həmədandan Dərbəndə qədər özümüzük. Atropatenadan Albaniyaya qədər özümüzük. Babəkin azadlıq hərəkatı özümüzük. Atabəylərdən Qacarlara qədər özümüzük. Nizamidən Mirzə Cəlilə qədər özümüzük. Müşfiqdən Xəlil Rza Ulutürkə qədər özümüzük. Nəriman Nərimanovdan Heydər Əliyevə qədər, İlham Əliyevə qədər özümüzük. Biz oğuzuq, biz Azərbaycan türküyük, biz Azəriyik! (i-şəkilçisini fars şəkilçisi hesab edirlər. İ-şəkilçisi cəm şəkilçisidir. Təbrizlilər "gəliri"-deyir, yəni gəlirlər) Yəni Azərlərik. Qoy dünya bizi belə tanısın. Özümüzük!

*11.01.2024*

* * *

A qonşu, Əhməd qətl törədir, doğmalarını öldürür, sən isə telefonu qapının gözlüyünə tutub bu vəhşəti şirin-şirin çəkirsən. Sonra da bu videonu qəhrəman-qəhrəman paylaşırsan. Niyə haray salmadın? Niyə qapını təpikləmədin? Niyə bu məsum ananı, məsum uşağı xilas etmədin? Axı hay-harayın onları xilas edərdi. Bəlkə də, Əhmədin sonrakı cinayətinin qarşısını alardın. Amma sən video çəkirdin. Səninlə Əhmədin nə fərqi var? Sən nə etdin, a qonşu? Sən nə etdin? Lənət sənə! Bu gediş bizi haraya aparır, İlahi!

*15.02.2024*

* * *

Qədim zamanlardan bizlərə miras saflığlı, ilkinliyi, təmizliyi ilə seçilən çərşənbələr və dörd ünsürün birləşdiyi Novruz bayramıdır. Min-min oyunun cövlan etdiyi bu dünyada Novruz bayramı

yeganə milli mirasdır, milli dəyərdir, milli qalxandır. Bu bayrama çöp uzadanların sayı yaman çoxalıb. Gərək bu bayramı göz bəbəyi kimi qoruyaq! Od çərşənbəmiz mübarək!

*12.03.2024*

* * *

Çalağan. Maaşlar, təqaüdlər qalxmamış çalağanlar iş başında. Cibin ağzını ha bağla, xeyri yoxdur. Çalağanlar min bir yolla ciblərə yol tapırlar. Maşallah, gözləri yaman açıqdır. Yırtıcı quşun adını nahaqdan çalağan qoymayıblar ki.

*04.10.2024*

* * *

İstirahət etmək istəyirəm. Çayxanaya gedirəm:

– Zəhmət olmasa, çay.

– Nəynən?

– Necə yəni nəynən? Qəndnən.

– Yəni şokaladnan, mürəbbəynən, keksnən?...

– Qardaş, şəkərim var. Axı bu istidə bunlardan yeyim ölüm?

– Bizdə servis belədir.

– Yaxşı da, keksnən gətir.

Gətirdi. Çayı içdim, keksi yedim, "öldüm".

– Neçə verəcəyəm?

– Yeddi manat.

Bu da mənim istirahətim.

*11.08.2023*

* * *

Hər bir ad günü insanın öz-özünə hesabatıdır. İnsan yaşadığı bir ili əziz xatirə kimi köksünə sıxıb

yeni yaş ilini qarşılayır. Əziz prezidentimiz, Ali Baş Komandan İlham Heydər oğlu Əliyev, sizin ad gününüz təkcə sizə aid deyil, millətimizə, dövlətimizə aiddir. Sizin hər bir ad gününüz Azərbaycanı daim irəli aparır. İqtisadi yüksəliş, siyasi yüksəliş, milli yüksəliş. Növbəti addımlar Qərbi Azərbaycanadır. Ad gününüz mübarək, böyük rəhbərimiz!

*24.12.2024*

# İ Ç Ə R İ K

Tofiq Qəbulun Bütöv Yurd Duasını Dinləyərkən
*(Elxan Yurdoğlu)* ............................................. 3

**Zaman haqq işini gördü axır ki**

İndi Azərbaycan sən deyən deyil ....................... 12
Xarıbülbül ................................................... 13
Bütövlüyün dadı başqa ................................... 14
Xankəndi, Xocavənd, Xocalı, Şuşa .................... 15
Xankəndim qurtulsun 9 may günü ..................... 17
Necə deyim axı? ............................................ 18
Bütöv Yurdun duası gərək................................ 19
Batabat........................................................ 20
Nə şirinsən, ana dilim!.................................... 21
Şeirlərim ..................................................... 22
Mən şeiri yazmıram ki ..................................... 23
İllərim köç eləyir ........................................... 24
Qadınlar ...................................................... 25
Atalar.......................................................... 26
Ömür dastanım .............................................. 27
Dünyamız karantində ...................................... 29

Hər kəsin gümanı sənədir, həkim! ..................... 30
Payız ömrü ..................................................... 31
Korrupsionerə ................................................ 32
Nə vaxt? ........................................................ 33
Orucunuz mübarək! ......................................... 34
Elegiya .......................................................... 35
Dünya duracaq yer deyil .................................. 36
Oxumuram, əl çəkin! ....................................... 37
Azad qadın deyim sənə? .................................. 39
Yanvardır qar isə yox ...................................... 40
Yağış kimi ..................................................... 41
Zaman bir qayğısız hellәncәk .......................... 42
Epiqram ........................................................ 43
Adsız şeir ...................................................... 44
Getdi zaman ................................................... 44
Qəm .............................................................. 45
Zarafatdı ....................................................... 45
Ta sevgi şeiri yazmayacağam ............................ 46
Gül, tikanı neynəyirsən? .................................. 47
Yeni dünya düzəni .......................................... 48

Lövhə ........................................................ 49

66 yaş – təqaüd yaşım...................................... 49

Zaman öz işindədir.......................................... 50

Tanrı bizə zaman qurdu .................................. 51

Nuo ........................................................... 51

O ilk .......................................................... 52

Ta kimə gərəyəm ............................................ 53

Kərbəla ...................................................... 54

Bizim vaxtımızda belə deyildi........................... 55

Bu şeirim sənə hədiyyəm ................................. 56

Vüqar.......................................................... 57

Nə işim vardı dünyayla? .................................. 58

Ay həkim...................................................... 58

Qurtuluş yox ................................................ 59

Səni necə vəsf edim? ...................................... 60

68............................................................... 61

Söylə, təyyarə................................................ 62

Tənha.......................................................... 62

Özümüz olmasaq ............................................ 64

Tənhasan, adam ............................................. 65

Bahar ........................................................ 66

**Poema** Ağcabədi şəhərinin ilk şəhidi ................. 67

**Sevgi duyğuları**

Şəhid məzarı önündə bir qızın monoloqu ............ 74

Arzulayıram ................................................. 76

İntizar ........................................................ 76

Gözüm nuru ................................................. 77

Qıyğacı baxışın xoşuma gəlir ............................ 78

Sevgi yoldur bizə .......................................... 79

Sən özün gərəksən ......................................... 79

Lal sevgim ................................................... 80

Zaman necə sərt imiş! ..................................... 81

Qəribə görüş ................................................ 82

Sevgi karantini .............................................. 84

Xoşbəxt xəyal, dadlı yuxu ................................ 84

Sevgi dolu şeir kitabım .................................... 85

**Təkbəndlər** ................................................. 86

**Düşüncələrim** ............................................. 95

**TOFİQ QƏBUL**
***(Qəbulov Tofiq Məmmədsadiq oğlu)***

# BÜTÖV YURDUN DUASI GƏRƏK

**Korrektor**
*Leyla Əlisoy*

**Kompüter tərtibatı**
**və qrafik dizayner**
*Ziya Məmmədov*

Çapa imzalanmışdır 29.01.2026.
Formatı 60X90 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 7.5 ç.v.
Sifariş № 15. Tiraj 100 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14.